2 AZN

№4(36), 2007

ƏDƏBİ, FƏNNİ, SİYASİ, İCTİMAİ, MÜSƏVVƏR, HƏFTƏLİK
TÜRKCƏ MƏCMUƏYİ - İSLAMİYYƏDİR

# Füyuzat

*Ümid ilədir binayi-aləm*
*Ümid mühəndisi-cahandır*
*Zövqavəri-fikr, qəlbi-candır*
*Ümid ilədir bəqayi-adəm...*

*Əbdüssəlimzadə*

*Göy üzü süfrəsinə əlləri çatmış böyüklərimiz yetişdirdikləri nəsillərin də o zəngin və pak nemətlərdən qidalanmağını ömürlərinin qayəsi hesab etmişlər. Bu gün yenə də ziyarətlərində olanlara torpaqlaşmadan öncə milli mənəviyyatımızın sönməz günəşlərinin ətrafında birləşməyi tövsiyə edirlər.*



8/05) 16988
2007 54 Füyuzat

# İçindəkilər


5



Həsən Səbri Eyvazov
MİLLƏTLƏRİN YAŞAMASI NƏ İLƏ MÜMKÜNDÜR?

16



Ə.Hüseynzadə
TOLSTOYLUQ NƏDİR?

21



Abdullah Gənc
İNTELLEKTUALLIQ

24



Aygün Şəbiyeva
HÜRRİYYƏT VƏ VƏHDƏT ŞAİRİ

36



Babək Tatlıyev
BİOQUMUS

54



Ağa Hacıbəyli
MÜƏLLİM

| | | |
|---|---|---|
| BAŞ REDAKTORDAN | 3 | *Teymur Əhmədov* |
| ƏLİ BƏY HÜSEYNZADƏNİN BİZLƏRƏ ƏMANƏTLƏRİ | 10 | *Sabir Azəri* |
| QEYRİ-SƏLİS MƏNTİQ NƏZƏRİYYƏSİNİN BANİSİ | 12 | *Seymur Şəmiyev* |
| OYAN, ARAZ!.. | 30 | *Didərgin* |
| VƏTƏN NƏDİR? | 32 | *Doktor Hüseyn Şərqi* |
| SAĞLAMLIĞIMIZ TƏHLÜKƏDƏDİR | 40 | *Elşad Abdullayev* |
| ÜZEYİR HACIBƏYOV | 44 | *Elmira Qasımova* |
| GÜLÜSTAN POEMASI | 46 | *Bəxtiyar Vahabzadə* |
| KƏLBƏCƏR ALINMAZ QALA İDİ... | 50 | *Tofiq Hacıyev* |
| AZƏRBAYCAN XALQINA ÜRƏYİMİ VERMİŞƏM | 56 | *Adilə Qocayeva* |
| ANA | 61 | *Cəfər Cabbarlı* |
| KAMAL BAĞÇASI | 62 | *M.Yunusov* |
| ŞÜKUFƏZARİ-BƏNAT VƏ YAXUD QIZLAR BAĞÇASI | 64 | *Məhəmməd Hadi* |


16988
M.F.Axundov adına Azərbaycan Milli

Füyuzat
№ 4(36), 2007 (1906–1907)

Təsisçi “Milli İrsi, Mədəni, Tarixi Araşdırmalar” Fondu
Baş redaktor Teymur Əhmədov
Redaktor Elçin Bilaloğlu
Məsul katib Mübariz Yunusov
Şöbə müdiri Samir Ramizoğlu
Redaksiya heyəti Cəmil Quliyev
Tofiq Köçərli
Allahşükür Paşazadə
Bəxtiyar Vahabzadə
Ağamusa Axundov
Fuad Qasımzadə
İsmail Allahverdi
Yusif Rüstəmov
Sevda Məmmədəliyeva
Şirməmməd Hüseynov
Cahangir Məmmədov
Əlirza Qafarlı
Ağa Hacıbəyli
Qürbət Gümüşov
Muxtar Cəfərli
Dizayner Fəxri Vəliyev
Korrektor Suğra Osmanova
E-poçt fuyuzat2007@e-mail.ru
VÖEN 1300563641
Tiraj 500
Ünvan Bakı şəhəri, AZ-1122, H.Zərdabi pr., 78
Telefon (+994 12) 4332297
(+994 50) 7223334
Faks: (+994 12) 4332294

Jurnal Azərbaycan Respublikası Ədliyyə Nazirliyində qeydiyyatdan keçmişdir. Qeydiyyat №1303

**Dərc olunan yazılar müəlliflərin mövqeyini əks etdirir**
**Əlyazmalar geri qaytarılmır**

**“Füyuzat” jurnalına abunə olmaq istəyənlər üçün:**
6 aylıq – 10 AZN
12 aylıq – 18 AZN

**“NURLAR” Nəşriyyat-Poliqrafiya Mərkəzində çap olunmuşdur**

# baş redaktordan

***Professor TEYMUR ƏHMƏDOV***



Azərbaycan, Oğuz yurdu – Ulu Tanrının cazibədar gözəlliyi, zəngin təbii sərvəti əsirgəmədiyi cənnət məkanıdır. Bu diyar zaman-zaman fatehlərin və tiranların amansız hücumlarına məruz qalıb.

Yadellilər səmum yeli tək ardı-arası kəsilmədən gözlənilməz hücumları ilə şəhər və kəndləri talayıb yerləyeksan edib, əhalini doğma yurd-yuvasından pərən-pərənə salmışlar. Azərbaycanın nər igidləri elliklə silaha sarılıb qanlı döyüşlərdə vuruşub yüz minlərlə şəhid versələr də mübarizədən geri çəkilməmiş, müqəddəs ana vətəni canlarından əziz tutmuşlar.

Fələyin çərxi fırlandıqca yadellilərin Azərbaycana, türk xalqına qarşı pataloji kin-küdurəti artmışdır.

XVIII əsrin birinci yarısı rus çarı I Pyotr Rusiyanı genişləndirmək üçün "Baltik dənizindən cənubda isti dənizlərədək ərazini" tutmağı vəsiyyət edərkən ilk növbədə "vaxtı fövt etmədən Qafqazı zəbt və işğal" etməyi məsləhət görmüşdür.

Dünya hökmranlığı iştahasında olan I Pyotr öz vəsiyyətində yazırdı ki, Rusiyanın dünya dövləti adlanması üçün "onun paytaxtı Asiya və Avropanın xəzinələrinin açarı olan İstanbul" olmalıdır. O, vaxt itirmədən "İstanbula, Qərb torpaqlarına sahib olmaq" üçün yerli xanları ələ alıb "sünni-şiə ixtilaflarını qızışdırmağı, müsəlman ölkələrini göz açıb öz hüquqlarını anlamağa, bir-biri ilə dil tapmağa imkan verməməyi tövsiyə edirdi. I Pyotr əsl niyyətini izah edərək yazırdı: "Əlbəttə, İstanbula sahib olan çar dünyanın da sahibi olacaqdır. Bu məqsədi həyata keçirmək üçün həmişə Osmanlı imperiyası ilə İran arasında fitnə-fəsad, dava-dalaş salmaq lazımdır. Bu işdə sünni-şiə ixtilafları yaxşı vasitədir".

Rusiyanın Türkiyə və İrana qarşı apardığı hərbi əməliyyatlar bədnam müqavilələr və əhdnamələr ilə nəticələnmişdi. Bunlar I Pyotrun təcavüzkar xülyasının Rusiya imperiyası tərəfindən həyata keçirilməsi idi.

Şuşalı və Qarabağlı İbrahim xanın "Kürəkçay müqaviləsi"ndə öz varisləri və vəliəhdləri adından İranın vassallığından təntənəli surətdə imtina etməsi Rusiyanın ali hakimiyyətindən savayı heç bir dövlətin hakimiyyətini tanımaması və rus tacı-taxtına sədaqət vəd etməsi məcburiyyət, zorakılıq və qara-qorxu nəticəsində olmuşdur.

"Gülüstan müqaviləsi"ndə İran şahının Qarabağ, Gəncə, Şəki, Şirvan, Dərbənd, Quba, Bakı və Talış xanlıqlarının, eləcə də Xəzər dənizinə aid bütün mülk və torpaqların Rusiya imperiyasının mülkiyyəti olmasını qəbul etməsi, bu ərazilərin əsl sahibləri olan insanların rəyi ilə razılaşmadan onun iki hissəyə parçalanması düşmənçilik siyasəti, amansız cinayət idi.

1928-ci ildə Rusiya imperiyası ilə İran arasında bağlanan "Türkmənçay sülh müqaviləsi"ndə İran şahı "İrəvan xanlığını və Naxçıvan xanlığını Rusiya imperiyasının tam mülkiyyətinə güzəştə gedir". Eyni zamanda öz sədaqətini sübut etmək xatirinə tam ra-

zılıqla müqavilənin beşinci maddəsini qəbul edir. Orada deyilir: "...Qafqaz sıra dağları və Xəzər dənizi arasında yerləşən bütün torpaqların və bütün adaların, bununla bərabər, həmin məmləkətlərdə yaşayan bütün köçəri və başqa xalqların əbədi zamanadək Rusiya imperiyasına məxsus olduğunu təntənə ilə tanıyır".

Qədim zamanlardan bütöv bir ərazidə – öz doğma torpağında yaşayan Azərbaycan xalqı təcavüzkarlıq və müstəbidlik zəminində parçalandı, vətən iki yerə bölündü: Quzey Azərbaycan və Güney Azərbaycan adlandı. Azərbaycanlılar öz doğmaları ilə tikanlı məftillərlə ayrıldılar.

Vətənim parçalandı
Ürəyim odda yandı.
Cəllad durdu qəsdimə:
İraq düşdü qardaşım
Selə döndü göz yaşım.

Bu tarixi faciədən təxminən 200 il keçir. Güney Azərbaycanda yaşayan soydaşlarımızın düçar olduğu təkcə ayrılıq iztirabı, hicran, göz yaşları olmadı, onlar ümummilli inkişafdan, iqtisadi, mədəni, sosial tərəqqidən məhrum edildilər. Şah rejimi onları əsarətdə saxladı, tarixi köklərini, dilini, milli mənşəyini unutdurmağa çalışdı.

Azərbaycanlıları "din qardaşları" adlandıran şovinist rejim ermənilərin inkişafına hərtərəfli şərait yaratdı: erməni dilində qəzet və jurnallar çıxarıb, ali məktəblər, ictimai təşkilatların fəaliyyət göstərməsinə rəvac verdilər.

Təcavüzkar Ermənistanla İranın hərtərəfli əməkdaşlığı da azərbaycanlıların əleyhinə çevrildi. Əgər onların sıx əməkdaşlığı olmasaydı, bəlkə də ermənilər Qafqaz regionunda tənha, miskin və arxasız olduqlarını daha tez başa düşər, çar Rusiyasının qayğısı ilə xaricdən Oğuz yurdu – Ermənistana köçürüldükləri vaxtdan bəri, hətta ikinci dünya müharibəsi dövründə azərbaycanlıların qapısında muzdlu fəhlə kimi çalışdıqlarını, onların çörəyi ilə gündüzəran keçirdiklərini yadlarına salar, abır-həya edib təcavüzkarlıq siyasətindən əl çəkərdilər.

Güney azərbaycanlılar iki əsrə yaxın əsarətdə, sıxıntı içində yaşasalar da, onlar öz dilini, milli adət-ənələrini, mədəni irisini, tarixini hifz etdi, Quzey Azərbaycanda onların həsrətini çəkən canbir qardaşları ilə mənəvi bağlılığı qoruyub saxladı. Onların sıx birliyini heç bir qüvvə sarsıda bilmədi.

Parçalanmış bir millətin harayı, onun qəlbindən qopan həsrət və ayrılıq yazıçıların əsərlərində özünə yer tapdı. Şəhriyar, Səməd Vurğun, Səhənd, Süleyman Rüstəm, Balaş Azəroğlu, Söhrab Tahir öz şeirlərində hicran dərdini, vüsal həsrətini qələmə aldılar, parçalanmış torpağın naləsini bütün dünyaya car çəkdilər. M.S.Ordubadi, M.İbrahimov, R.Rza, M.Rahim, B.Vahabzadə öz əsərlərində zaman-zaman kükrəyən, azadlığa, birliyə can atan Şeyx Məhəmməd Xiyabani, Səttərxan, Seyid Cəfər Pişəvəri hərəkatını, Azərbaycan xalqının mübarizə əzmini təsvir etdilər. Azərbaycan xalqı məğlubedilməzdir.

Azərbaycanın ərazi bütövlüyü, xalqın birliyi uğrunda mübarizə bu gün də davam edir. Zaman öz hökmünü verəcək. Sabah nə hicran dərdi, nə vüsal həsrəti olacaqdır.

# Millətlərin yaşaması nə ilə mümkündür?

*Həsən Səbri Eyvazov*






Millətlərin həyatında tədqiq ediləcək iki mühüm amil vardır: bunlardan biri millətin təşkil olunduğu fərdlərin artma və azalma keyfiyyəti, digəri də o millətin təşkilat heyətinin ortaya çıxması və məhv olub getməsidir.

Əgər bir milllətin təşkil olunduğu fərdlərin artıb və azalma məsələsi "şəxsi həyat" fərz edilirsə, o millətin cəmiyyət olaraq ortaya çıxmasını, yox olub getməsini ictimai həyat hesab etməyin münasib olduğu düşüncəsindəyik.

Bu halda bir millətin "şəxsi həyatı" nəsil yetişdirməkdən ibarətdirsə, bu o millətin ictimai həyatının bünövrəsinin qoyulduğu əsas qüvvələrinin cəm olunduğu məsələsindən biri olduğuna görə, həmin millətin ictimai həyatının tamamlayıcı rolunu oynayır.

Millətlərin əsl həyatında ən böyük rol oynayan ictimai həyatdır. İctimai həyat sayəsində bir millət təşkil olduğu fərdlərin hürriyyət və istiqlaliyyətini, səadət və rahatlıqlarını daha çox təmin edərək millətlər qarşısında da şərəf və əhəmaiyyətlərini hər zaman qoruyurlar.

Elə isə millətlərin həyatı, fərdlərin həyatı kimi məhdud olmayıb, həyata bağlı şərt və qüvvələrin varlığı ilə yerində möhkəm dayanaraq bu şərait və qüvvələr davam etdikcə, o millətin həyatı da ölməz, fani olmaz.

Bir millətin ictimai həyatı məhv olmazsa, o millət heç bir zaman ölməz. Hətta xaricdən düşmənlərin şiddətli hücumlarına dözə bilməyib istiqlaliyyətini, haqq və hakimiyyətini itirəcək olsa da, ictimai həyat qüvvələrini mühafizə edərsə yenidən dirçələr və get-gedə bəlkə əvvəlki istiqlaliyyətini, mövqeyini qaytara bilər.

(Məqaləmizin əvvəlində söylədiyimiz kimi istiqlaliyyətini, şan və şöhrətini itirsə də ictimai həyatının nüfuz və qüvvəsini itirməz. Zatən bu gün şövkət sahibi olan bir çox millətlərin şövkəti, şövkət sahibi olmayan millətlərin yardımı ilə şan şöhrətli olur).

Finlandiyalılar əvvəllər Rusiyanın pəncəsi altına keçmiş olduqları halda, indi yenə də istiqlaliyyətlərini qaytarmaq üzrədirlər.

Millətlərin həyatı başlıca olaraq iki qismə bölünüb: biri maddi qüvvə, digəri də mənəvi qüvvə adlanır. Hansı millət olursa olsun ictimai həyatının mühafizə və davam etməsi üçün bu iki əsas qüvvəyə möhtacdır. Bunların birini əldə edib digərindən məhrum olarsa ictimai həyatı təhlükədən qurtulmaz, xarici hücumların şiddəti qarşısında toz kimi əriyib gedər.

Maddi qüvvələrin başlıcası bunlardır. Nəsil artırma, məişət səbəbləri, məmləkətin abadlaşdırılması, millətin sərvəti, məmləkəti mühafizə edən vəsaitlər. Nəsil artırma məsələsi bir millətin əhalisinin sayını mühafizə etməyə ən çox xidmət etdiyindən millətin həyatının birinci dərəcəli əhəmiyyətli məsələlərindəndir. Çünki, millətin fərdlərinin azalması bir sıra maddi zərərlərə səbəb olacağı kimi, artması da bir çox maddi faydaları ortaya çıxarır.

Həzrəti Fəxri Kainat (s.a.v)-in "evlənin və çoxalın" əmri bu hikmətə bağlıdır.

Yaşamaq səbəbi minlərcə olsa da hamısını dörd şöbəyə ayırmaq olar.

1-ci ticarət, 2-ci təsərrüfat, 3-cü sənət, 4-cü xidmət. Bu dörd şöbə həyatın ümümi səbəblərindəndir. Bir millət nə qədər tərəqqi və inkişaf edərsə fərdlərinin məişəti, hazırki və gələcək səadəti də o qədər asanlıq və vüsət kəsb edər.

Sadaladığımız bu səbəblər bir-birindən ayrılmadığından birinin zəifləməsi, digərinin zəifləməsinə, birinin tərəqqi etməsi də digərinin tərəqqi etməsinə yardımçı olar.

Biz müsəlmanlarda bu səbəblərin heç biri yoxdur desək yalan olmaz. Əkinçilik bilmirik, bilsək də əkinçilik etməyə torpağımız qalmamışdır. Sənətlə də dost deyilik. Ticarətə də yadıq. Xidmət isə, heç o da yoxdur. Bu halda vəziyyətimizin çox acınacaqlı hal olduğunu etiraf etməkdən başqa heç bir çarəmiz yoxdur. Həmin ümumi səbəblərə əks hərəkət edənlər zəlalət və səfalətə düçar olaraq dünyanın bəlalarının qəhri altında məhv olub gedərlər, təəssüf.

Məmləkətin abadlaşdırılması, bir millətin ab-havası, çörək və nemətlərlə bəslındiyi məmləkətin abad edilməsi çox mühüm və lazımdır. Bir məmləkətin abad olunması, şəhərlərin nizamlı, təmiz və səliqəli olması, küçələrinin geniş və təmizliyi yüksək imkanları və xeyirxah övladları sayəsindədir.

Məmləkətin hər bir yerində dəmir yollar, şoselər, postlar və dəniz varsa, çoxlu limanlar da düzəldilməlidir. Bir məmləkətin abad olunması mənsub olduğu millətin maddi qüvvəsinin əks olunan bir aynası və qeyd olunmuş qüvvələrin tərəqqi və təkamülünə çox böyük bir xidmətçidir. Hələ dəmir yollarının o qədər böyük faydaları vardır ki, məmləkətin bir tərəfində yetişən məhsulları digər tərəfinə bir neçə gün ərzində çatdırmaq mümkündür. Bir məmləkət nə qədər münbit və zəngin olursa-olsun nəqliyyat vasitələrindən məhrumdursa, o millətin fərdləri o məmləkətin zənginliyindən istifadə edə bilməz.

Məmləkətin abadlaşmasının böyük faydalarından biri də xaricdən bir çox tacir və zəvvarların cəlb edilməsidir.

"Milli sərvət", xüsusi və ümumi olaraq iki növdür:

Xüsusi sərvət, millətin fərdlərindən hər birinin özlərinə məxsus sərvətdir. Ümumi sərvət də ticarət şirkətlərinin və s. ümumi cəmiyyətin malik olduqları maddi sərmayələrdir. Banklar, sığorta kompaniyaları və bəzi fabriklər şirkət ilə təsis edildiyindən ümumi sərvətdən sayılır. Bizdə isə nə xüsusi sərvət, nə də ümumi sərvət yoxdur. Barmaqla sayılan bəzi zənginlərimiz varsa da cəmiyyətin böyüklüyünə nisbətən onlar da yox kimidir. Biz Milli sərvətdən bütünlüklə məhrumuq. Qədim sərvətimiz müharibə üçün faydalı sərvət olduğundan vətənimizin əldən getməsilə sərvətimiz də tükəndi. Ona görə də yeni sərvət istehsalı üçün vasitə və avadanlıqları əldə etməyib, həm qədim sərvətimizi itirdik, həm də yeni sərvətdən məhrum qaldıq. Sərvət istehsalının yeganə vasitəsi olan yuxarıda göstərilmiş dörd şöbədən həqiqətən məhrumuq. Bu gün başdan ayağa qədər üzərimizdə olan geyim, işığından istifadə etdiyimiz elektrik cihazları, xülasə yeyib-içdiyimiz, məskən və yurdumuz, hətta qəbrə gedərkən sarıldığımız kəfən belə əcnəbilərin əllərindən çıxmaqdadır. Qədimdən qalma milli sənayemizin hər biri, bir-bir məhv və tükənmiş, əkinçiliyə yararlı tarlalarımız da nemeslər, qaraimlər əlinə keçmişdir. Əgər "Siyasi iqtisadiyyat" fənnini məmləkətimizə tətbiq etsək, bizə verəcəyi birinci hökm: bizdə nə sərmayə, nə əkinçilik, nə sənət, nə ticarət, nə də xidmətə qabiliyyət olmadığı məsələsindən ibarətdir. Bu hökmü mən də təsdiq edirəm. Çünki, müsəlmanlarda bu gün cahillikdən, boş durmaqdan, tənbəllikdən, işsizlikdən başqa bir şey yoxdur... Çalışanlarımızda yalnız arabaçılıq, hamballıq kimi güc qüvvətdən asılı olan bir neçə adi məşğələlərdən başqa bir şey qalmamışdır... Keçək...

Məmləkəti mühafizə edən vəsaitlər də Milli sərvət kimi iki qisimdir. Biri məmləkətin sakinləri olan millət fərdlərinin mal və can, hüquq və namusunu qorumaq üçün asayiş və təhlükəsizliyi mühafizə vasitələri, digəri də xaricdən əcnəbilərin hücum və təcavüzünə qarşı məmləkəti mühafizə etmək səbəbidir. Məmləkətin mühafizə, millətin ən mühüm maddi qüvvəsini təşkil etdiyindən, bir millətin mühafizə və müdafiəsi nə qədər mükəmməl olarsa, düşmən hücumuna düçar olmaq ehtimalı da o qədər az olar. Və təcavüzə uğradığı vaxtda da məmləkətini müdafiəyə hər zaman qadir ola bilmək ümidi də o qədər güclü və mətin olar.

Bunun üçün mühafizə zamanında hazır və əldə edilməlidir. Əgər tənbəllik edib zamanında hazırlanmazsa sonra qarşısını almaq çox çətin zərər verməsinə səbəb olar. Belə olduqda özündə yaşadığı məmləkəti zaman və məkanın ehtiyacına görə hər ehtimala qarşı ehtiyatı əldən buraxmayıb mühafizəyə və müdafiənin əldə edilməsinə diqqət və etina etmək lazımdır. Məmləkəti mühafizə etmək mənsub olduğu millətin fərdlərinin hər birinə müqəddəs bir vəzifə olduğunu bildirərək düşmən tapdağı altında əzilməmək üçün məmləkətin mühafizə və müdafiəsinin çıxış nöqtəsi olan çarələrin icrasını öyrətməlidir. Məhz "İctimai həyat"ın mühafizə və davamı üçün ən çox ehtiyac olan "maddi qüvvə" bunlardan ibarətdir. Bir millət bu qüvvələri, bu səbəbləri əldə edib müntəzəm olaraq davam etdirərsə, gözlənilməz bir hadisə və səmavi bəlalar olmadığı təqdirdə "İctimai həyatını" hər zaman mühafizə etmiş olacağından ölməsi, məhv olması qeyri-mümkündür.

Mənəvi qüvvə:

Millətlərin yaşamasında ən böyük rol oynayan "ictmai həyat" olduğunu və bir millətin "ictimai həyatı"nı təmin və mühafizə edəcək "maddi qüvvə" və "mənəvi qüvvə" olduğunu bəyan edərək "maddi qüvvə"ni gücümüzün çatdığı qədər nələr-

dən ibarət olduğunu oxucularımıza yuxarıda bildirmişdik. İndi də əsas qüvvələrdən olan "mənəvi qüvvə"nin nələrdən ibarət olduğunu ifadə edəcəyik.

"Mənəvi qüvvə" ümumi maarif, əxlaq, ədalət, məmləkətin idarəçiliyi adları ilə dörd şöbəyə ayrılır: "Ümumi maarif" bütün millətin həyatı qüvvələrinin qidasıdır. Dünyada istər maddi, istər mənəvi heç bir həyati qüvvə təsəvvür olunmaz ki, ümumi maarifdən qidalanıb inkişaf etməsin!

Ümumi maarif füyuzatın əsasıdır. Ona görə də ümumi maarifi müntəzəm və mükəmməl olan bir millətin bütün həyati qüvvəsi davamlı olaraq feyz və kamal əldə edər. Hansı millətdə ümumi maarif olarsa, o millət dünyada baş verən bəlalardan qorxmaz. O millətin içinə zülm girə bilməz. O millət məhv olmaz. O millət ölməz. Bunun üçün ümumi maarifin yayılmasına, həyati qüvvələrin maarif qüvvəsilə qidalanmasına çalışılmalıdır.







Vaxtilə müsəlmanların kəsb etdikləri mədəni tərəqqilərdən bu gün heç bir şey qalmadığını islam ölkələri arasında ümumi maarifin yayılmamasından irəli gəlmişdir, desək çox xəta etmiş olmarıq. Çünki o vaxtlarda istər elm, istər sərvət sırf xüsusi insanlar sinfinə aid idi. Məmləkətin hansı bir tərəfində bir əlləmə, bir şair, bir dahi zühur etdisə, o zamanın padşahları onları öz yanlarında saxladılar. Başqaları bu şəxslərdən istifadə edə bilmədilər. İslam padşahlarının məğlub olmasilə maarifləri, sərvətləri də əcnəbilərin əllərinə keçmişdir. İslam məşhurları bir çox faydalı əsərlər və dünyada qiymətli kitabxanalar qoyub getsələr də onlardan sonra qalan millət maarifin nə olduğundan xəbəri olmadığından o böyük alimlərin əsərləri də əcnəbilərin əllərinə keçmişdir. Bu gün Avropa kitabxanaları ziyarət edilərsə, ilk gözə çarpan və kitabxanaları bəzəyən əlyazmaları islami əsərlərdir. Əgər islam ölkələrində ümumi maarif cari olsaydı, müsəlmanlar islam mədəniyyətini kim bilir nə qədər daha tərəqqi etdirərdilər. Və biz də bu günkü hallara qalmazdıq. Heyhat!..

Nə isə məqsədə gələk: bir millətdə maarifin təkamülü, əvvəla o milləti təşkil edən fərdlərin ümumiyyətlə (arabaçı, qapıçı, hambalçısına qədər) milli dili oxuyub-yazmağa, buna görə də yazdığını oxumağa, oxuduğunu anlamağa qadir olması; ikincisi: təbiət elmləri və müxtəlif fənlərə mənsub olanların məmləkət və millətin ehtiyaclarına görə çox olması, üçüncü: məşhur alimlər, tanınmış ədiblər və güc sahibləri, ixtisas sahiblərinin çox olmasıdır; dördüncüsü: mətbuatın, qəzetlərin çox olması; beşinci: hər səviyyədə ümumi və xüsusi məktəblərin və universitetlərin, kitabxanaların, fənni və elmi cəmiyyətlərin çoxluğu ilədir...

Ümumi maarif dərəcə etibarilə əsasən üç dərəcəyə ayrılmışdır:

1) "İbtidai-maarif" – bütün millətin fərdlərinin bu birinci dərəcə olan ibtidai-maarifi məcburən təhsil alması çox mühüm və gərəklidir.

2) "Orta səviyyəli maarif" – mümkün olduğu qədər bu ikinci dərəcənin də məcburi olmasına diqqət edilməlidir.

3) "Ali təhsil" – əhatə etdiyi müxtəlif şöbələrin hər birindən millətə, məmləkətə mükəmməl əfəndilər yetişir. Millət və məmləkət rifah və səadəti, maddi və mənəvi tərəqqiləri ancaq bu şəxslərdən gözləyə bilər. Bu üç səviyyədə ümumi maarifin təhsil üçün hər səviyyəyə uyğun məktəblər yaradılmalıdır. Bu gün tərəqqi etmiş məmləkətlərdə üç növ məktəb vardır: bunlardan biri "İbtidai məktəb", digəri "Orta məktəb", üçüncüsü də "Ali məktəb" adları ilə adlandırılmışdır. Qapıları da hər kəs üçün hər zaman açıqdır...

***08 dekabr 1906 N 4***
***12 yanvar 1907 N 7***

*Davamı var*

# Əli bəy Hüseynzadənin bizlərə əmanətləri

**Həsən bəy Zərdabinin "Əkinçi"sinin səpdiyi toxumlar çox bərəkətli və məhsuldar oldu. XX əsrin əvvəlində bir-birinin ardınca "Molla Nəsrəddin", "İrşad", "Füyuzat" və başqaları kimi parlaq çap orqanları dünyaya gəldi. Təsadüfi deyildir ki, onlar təkcə Azərbaycanda deyil, Orta Asiyada, İranda..., yəni bütün müsəlman dünyasında sürətlə yayıldılar, şöhrət qazandılar.**

**Mətbuat tariximizdə ən şərəfli yerlərdən birini məhz "Füyuzat" tuturdu. Eşidəndə ki, bir qrup xeyirxah insan həmin adda yeni dərgi buraxır, həm sevindim, həm də qəlbimdə onlara dərin minnətdarlıq hissi baş qaldırdı. Tarixi, milli, mənəvi ənənələrimizi yaşadanlara eşq olsun!**

**Böyük Əli bəy Hüseynzadənin ruhu şad olsun.**

***Sabir Azəri***
*Yazıçı, "Zəka" İntellektual Mərkəzinin sədri*

***Sabir Azəri***
*yazıçı*

Əslində "əmanətləri" yerinə "vəsiyyətləri" yazmalıydım. Amma məcburən fikrimi dəyişdim. Səbəb? Bunu sonda açacağam.

Əmanətlər-vəsiyyətlər hansılar idi? Onları, əsasən, dörd meyara bölmək olar: Vətəndaşlıq, Milliyyətçilik, Türkçülük, Ziyalılıq.

## VƏTƏNDAŞLIQ

Azərbaycanda bu anlayış zəif olub, nə danaq, əqidə anlamına ucalmayıb, çünki ölkəmiz əldən-ələ çox keçibdir. Son iki yüz ildə isə ixtiyarımız rus imperiyasının əlində olubdur. Buna baxmayaraq hələ XIX əsrin ortalarından M.F.Axundovdan, A.A.Bakıxanovdan, H.B.Zərdabidən başlamış, XX əsrin əvvəllərindən isə Mirzə Cəlildən, Sabirdən, Firudin bəy Köçərlidən, N.Nərimanovdan, M.Ə.Rəsulzadədən, Üzeyir bəydən sonra vətənpərvərlik anlayışı Milli şüur – İdeologiya səviyyəsinə qalxdı. Həm də bu təkamülün əsas dəyəri onda idi ki, Azərbaycan hələ də rus imperiyasının əsarəti altında idi və yetmiş il boyuncada o əsarətdən xilas ola bilməyəcəkdi.

Adlarını çəkdiyim və çəkmədiyim o Böyük nəslin xidməti, bax bunda idi – başlarının üstündən demokl qılıncı kimi asılan çar istibdadına sinə gərərək öz vətəndaşlarını milli özünüdərkə, intibaha, oyanışa səsləyirdilər.

Amma nə yazıqlar ki...

## MİLLƏTÇİLİK

Yox, o, Milliyyətçilik idi. Nədən ki, o böyük ziyalılar nəsli şovinizm səviyyəsində olan millətçiliklə Vətən sevgisinin nuruna bələnən Millətçiliyi eyniləşdirməyiblər. Yəni bilirdilər ki, Millətçilik hər bir xalqı dünyadan, ümumbəşəri dəyərlərdən, islamın fundamental prinsiplərindən ayırır, təcrid edir və son nəticədə şovinizm, özünəvurğunluq bumeranq kimi qayıdıb özünə çırpılır; başqalarının etimadsızlığına, nifrətinə tuş gəlir. Milliyyətçilik, yəni Vətənini, xalqını sevmək isə hər bir kəsin müqəddəs borcudur. Milliyyətçilik də, vətəndaşlıq kimi həm geniş, həm də çox incə anlayışdır, vətən sevgisi ilə yanaşı ümumbəşəri dəyərlərlə, sivilizasiyanın qlobal və milli mahiyyətinin sintezini yaratmağı tələb edir.

Amma nə yazıqlar ki...

## TÜRKÇÜLÜK

Tarixən yan-yörəmizdəki, hətta uzaqdakı dövlətlər də türkçülük ideyasından qorxublar, vahimələniblər. Niyə? Necə olur ki, xristianlığın birliyi dünya üçün təlaşa çevrilmir, hətta islam dövlətlərinin koalisiyasına da bir təhər dözürlər, ancaq Türkçülüyümüzün mövcudluğu dünyada belə xof yaradır!? Hətta Sovet İmperiyası kimi möhtəşəm bir Güc Mərkəzi də türkçülükdən əndişələnirdi... Bunun sirri barədə, çoxları kimi, mən də baş sındırmışam və belə nəticəyə gəlmişəm ki, sirr Türk Ruhunun qüdrətində, yenilməzliyində, qətiyyətindədir. Osmanlı İmperiyasının (7 əsrə yaxın) və Ata Türk xofu da bir yandan öz işini görürdü. Təsadüfi deyildi ki, SSRİ türk sözünün işlənməsinə belə yol vermirdi.

Əli bəy Hüseynzadə və onun "Füyüzat"ı Türkçülüyün ən ardıcıl və fədakar təbliğatçısı idi.

Nə yazıqlar ki...

## ZİYALILIQ

Bu, həmişə məndə sevinc, ümid yaratsa da əksər hallarda təəssüf, hətta kədər doğurur. Çünki çoxları Ziyalılıqla Diplomluluğu qarışdırırlar. Ziyalı deyəndə mən N.Nərimanovu, H.B.Zərdabini, Mirzə Cəlili, Sabiri, Ə.B.Ağayevi, Üzeyir bəy Hacıbəyovu, Ə.B. Hüseynzadəni, həm də H.Z.Tağıyevi nəzərdə tuturam. Çünki onlar doğrudan da milli-dövlətçilik maraqlarını şəxsi maraqlarından üstün tutan və öz ideallarını həyata keçirmək üçün intellektual səviyyələri yüksək olan insanlar idilər. Məhz buna görədir ki, o nəsil indi də bizlərdən ötrü etalon olaraq qalırlar.

Nə yazıqlar ki...

Zənnimcə, artıq başlanğıcda ortaya çıxmış suala cavab verməyin zamanıdır. Bəli, nə yazıqlar ki, bizlərdə Vətən anlayışı bölgə anlayışı ilə qarışdırılır. Odur ki, bölgə təəssübkeşliyi Vətən sevgisindən üstün tutulur, vətəndaşlıq bölgəçilik kimi anlaşılır.

Bəli, nə yazıqlar ki, milliyyətçilik yerlilikçilik, tayfabazlıq, qohumbazlıq kimi qəbul edilir.

Bəli, nə yazıqlar ki, Türkçülük bizim ölkədə etnik xırdaçılığa, separatçılığa uduzur. Əfsuslar ki, türkçülüyün fəlsəfi-psixoloji-tarixi mahiyyətini hələ bütün dərinliyi ilə dərk etmirik.

Nəhayət, bütün bunlar ona görə baş verir ki, vətəndaşların milli şüuru milli ideologiyası, istənilən səviyyədə formalaşmayıb və vətəndaşlığımız, milliyyətçiliyimiz, ziyalılığımız kamil deyildir.

Bəs nə etməli? Çıxış yolumuz nədədir?

Tariximizi sevməliyik, öyrənməliyik, lakin keçmişdə ilişib qalmamalıyıq, sabaha baxmalıyıq. Dünya ilə ayaqlaşmalıyıq. Və son olaraq – Vətən, Millət naminə birləşməli, özümüzdən çox onlar barədə düşünməliyik, onlar naminə çalışmalıyıq. Və mübarizəmizdə ardıcıl, qətiyyətli, dözümlü olmalıyıq! Yadda saxlamalıyıq – Vətəni xoşbəxt olmayan vətəndaş xoşbəxt ola bilməz.





Seymur Şəmiyev

# Qeyri-səlis məntiq nəzəriyyəsinin banisi

**Bu gün Lütfi Zadənin adı – İsaak Nyuton, Albert Eynşteyn, Ernest Rezerford, Blez Paskal və başqa dünya elminin dahi şəxsiyyətlərilə bir sırada çəkilir. Bu dünya elminin nəhəngləri elmə böyük töhfələrini vermişlər. Lütfi Zadənin adının bu alimlərlə bir sırada çəkilməsinə onun dünya elminə gətirdiyi yeni nəzəriyyə və qazandığı nailiyyətlər səbəb olub.**

Lütfi Zadə Amerikada yaşasa da əslən Azərbaycanlıdır. O, Azərbaycanda az bir zaman yaşamasına baxmayaraq heç vaxt bu ölkəni unutmur. Bu gün onun evində Azərbaycanın görkəmli bəstəkar və müğənnilərinin lent yazıları var. L.Zadə ilə Azərbaycan və Bakı haqqında söhbət edərkən onun hər zaman kövrəldiyi qeyd olunur. Bu dünya şöhrətli alimi öz vətənində heç vaxt unutmurlar. Belə ki, onun haqqında "Müasir elmin karifeyi", "Dünya dahilərsiz yaşaya bilmir" adlı kitablar, "Uzaq və yaxın Lütfi Zadə", sənədli filmi, Lütfi Zadə irsi və süni İntellekt Asossasiyası, Lütfi Zadə adına Beynəlxalq Müasir Elmlər Akademiyası yaradılıb. Öz elmi nəzəriyyələri ilə dünyaya səs salan bu böyük alim haqqında nə qədər, kitablar yazılsa da, filmlər çəkilsə də yenə azdır. L.Zadənin elmə gətirdiyi yeniliklərdən bu gün bütün dünya yararlanır. Belə ki, dünya şöhrətli şirkətlər öz istehsalatında onun nəzəriyyəsinin tətbiqi nəticəsində həm şöhrətə həm də iri məbləğdə gəlirlərə sahib olublar.

Ümumiyyətlə Lütfi Zadə kimdir? Onun ailəsi, elmi fəaliyyəti haqqında nə bilirik.

Lütfi Zadə Bakıda Rəhim Ələsgərzadənin ailəsində anadan olub. Atası Rəhim Ələsgərzadə isə Cənubi Azərbaycanın Ərdəbil şəhərində anadan olub. I dünya müharibəsi illərində Bakı şəhərinə gəlib və burada kommersiya fəaliyyəti ilə məşğul olub. Onun ticarətinin əsas hissəsini İrandan kibrit alıb Bakıda satmaq təşkil edib. Bu vasitə ilə özünə yaxşı şərait yaradan Rəhim Ələsgərzadə bu fəaliyyəti ilə yanaşı Azərbaycan Universitetinin "Şərqşünaslıq" fakültəsində də təhsil alıb. Həmçinin İranda nəşr olunan həftəlik qəzetlərin Bakı nümayəndəsi kimi də çalışıb. Rəhim Ələsgərzadə Fanni adlı qadınla ailə həyatı qurur. 1921-ci ilin fevral ayının 4-də onun ailəsindən Lütfi adlı oğlan uşağı dünyaya gəlir. Lütfi 11 yaşına kimi Bakı şəhərindəki 16 saylı məktəbdə təhsil alır. O, hələ uşaq çağlarından öz fitri istedadı ilə digər uşaqlardan seçilib. Bütün vaxtını kitab oxumağa həsr edib. Onun otağında əksəriyyəti rus dilində olan iki mindən çox kitab olub.

Sovetlər birliyində olan Azərbaycanda 1932-ci ildə fərman imzalanır. Bu fərmana görə Azərbaycanda yaşayan İran vətəndaşları ya buranın vətəndaşlığını qəbul edib yaşamalı, ya da ölkəni tərk etməli idilər. O, vaxtlar Sovet Azərbaycanında gedən proseslər Rəhim Ələsgərzadəni narahat edir. Ölkədəki vəziyyətin kəskin şəkildə dəyişməsi Rəhim Ələsgərzadəni ailəsi ilə birlikdə Tehran şəhərinə köçməyə məcbur edir. Lütfi Tehranda amerikalıların Albros missioner məktəbində təhsilini davam etdirir. Lütfi Zadə ilk ali təhsilini Tehran Universitetinin Elektrik Mühəndisliyi fakültəsində alıb. O, hələ amerikalıların məktəbində təhsil alarkən Amerika təhsili ilə sovet təhsili arasındakı böyük fərq olduğunu görür. Amerikalıların elmi, təhsili və mədəniyyəti ilə tanış olduqca bu ölkəyə onun marağı getdikcə artırdı. Xüsusi ilə amerikada elm və təhsilin inkişafına yaradılmış şərait onu tam qane edir. Bu səbəbdən də Lütfi Zadə 1944-cü ildə Amerikaya gedib təhsilini orda davam etdirmək qərarına gəlir. Amerikanın Massacusets Texnologiya İnstitutunda təhsilini davam etdirir. 1947-ci ildə artıq o, Kolumbiya Universitetində çalışmağa başlayır. Elə həmin ildə valideynlərini də öz yanına gətirir. Lütfi Zadə 1948-ci ildə Kolumbiya Universitetində elektron mühəndisliyi üzrə magistr dərəcəsi alır. 1957-ci ildə isə həmin universitetdə professor dərəcəsi alır. Lütfi Zadənin elmi bacarığı və fitri istedadı məhşur alim Nobert Vinerin nəzərindən yayınmır. Kibernetikanın



atası hesab olunan bu alimin tövsiyəsilə Lütfi Zadə Kaliforniyaya gəlir. Burada elmi fəaliyyətini Berkli Universitetində davam etdirir. 1959-cu ildən Berkli Universitetində professor, 1963-cü ildən isə "Elektrik Mühəndisliyi və kompüter elmləri" kafedrasının rəhbəri işləyir. Bu günə kimi professor Lütfi Zadə həmin universitetdə ömürlük professor və Soft Computing institutunun direktoru kimi fəaliyyət göstərir.

Bu gün Azərbaycanın görkəmli oğlu Lütfi Zadənin adı - İsaak Nyuton, Albert Eynşteyn, Ernest Rezerford, Blez Paskal və başqa dünya elminin dahi şəxsiyyətlərilə bir sırada çəkilir. Bu dünya elminin nəhəngləri elmə böyük töhfələrini vermişlər. Lütfi Zadənin adının bu alimlərlə bir sırada çəkilməsinə onun dünya elminə gətirdiyi yeni nəzəriyyə və qazandığı nailiyyətlər səbəb olub. L.Zadə 5 fundamental elmi nəzəriyyə təklif edib.

L.Zadə ABŞ-ın Berkli şəhərində informasiya Texnologiyası üzrə Zadə institutu yaradıb – ZIFIT institutu elmdə Z - çevirmə kimi tanınan diskret və rəqəmli idarəetmə, informasiya və kommunikasiya sistemlərinin yaradılmasının əsasını qoymuş bir elmi nəzəriyyə də L.Zadəyə məxsusdur. Müasir idarəetmə elminin əsasını təşkil edən məşhur vəziyyətlər fəzası, dinamik sistemlərin idarə olunma və müşahidə olunma nəzəriyyələri ABŞ-ın Milli Kosmik Tədqiqatlar Mərkəzi (NASA) bu nəzəriyyələr əsasında idarəetmə sistemlərini tədqiq edir, layihələndirir və tətbiq edir. L.Zadənin ən böyük nəzəriyyəsi qeyri-səlist məntiq nəzəriyyəsidir. Bu nəzəriyyə riyaziyyatın əsası olan ikili çoxluq anlayışına yeni ifadə vermişdir: qeyri-səlis çoxluq.

Bu nəzəriyyə elmdə qeyri-səlis ölçünü, təbiətdə və cəmiyyətdə gedən proseslərin qeyri-müəyyənliyini daha adekvat nəzərə almağa imkan yaratdı. L.Zadənin Soft Computing nəzəriyyəsi qeyri-səlis məntiq, süni neyron şəbəkələri, genetiq alqoritmlər, xaos nəzəriyyəsi və ehtimal nəticəçıxarma paradiqtilərinin intellektual kombinasiyalarını özündə əks etdirərək yeni texnologiyaların əsasını təşkil edir. Sözlə işləyən kompyuterlər nəzəriyyəsi əsasında işləyən kompyuterlərdə informasiyanın qranulyasiyası kimi sözlər, cümlələr istifadə olunur. L.Zadənin bu nəzəriyyəsinə əsasən bu tip kompyuterlər təxmini məntiqi nəticə çıxarma qabiliyyətinə malik olan və təəssürat əsasında informasiyanı işləyə bilən insan beyninə ən adekvat texniki modeldir. L.Zadənin təəssürat nəzəriyyəsi dəqiq ölçmə aparmadan ətraf aləm haqqında tez və dolğun informasiya almaq üsullarını öyrədir. Yuxarıda qeyd edilən nəzəriyyələr hazırda elm və istehsalatda geniş şəkildə tətbiq olunur. L.Zadəyə dünya şöhrəti qazandıran, dünya elmində inqilab hesab olunan qeyri-səlis məntiq (Fuzzy logic) nəzəriyyəsidir. Bu nəzəriyyənin 1965-ci ildə işlənib hazırlanmasına baxmayaraq onu 20 ilə yaxın Amerikanın elmi ictimaiyyəti qəbul etmədi. Hətta bu nəzəriyyə gülünclə qarşılanırdı və onun texnika və texnologiyaya, ümumiyyətlə istehsalata tətbiqi mümkünsüz hesab edilirdi. Bütün bunlara baxmayaraq L.Zadə əmin idi ki, bu nəzəriyyənin tətbiqi nə vaxtsa baş verəcək və onun nə qədər qiymətli olduğunu anlayacaqlar. Bu hadisə ötən əsrin 80-ci illərində baş verdi. Yapon alimlərinin diqqətini cəlb edən bu unikal nəzəriyyənin tətbiqi bu ölkəyə milyardlar qazandırdı. Hazırda dünyada məşhur olan Yaponiyanın "Mitsubishi", "Toshiba", "Sony", "Canon", "Nissan", "Honda" və digər nüfuzlu şirkətləri qeyri-səlis məntiq texnologiyasından foto və videokameralar, paltaryuyan maşınlar, vakuum kimyəvi təmizləyiciləri istehsalında, avtomobillərin, qatarların, sənaye proseslərinin idarəolunmasında geniş istifadə edirlər. Yapon dövləti bu nəzəriyyənin ölkə sənayesinə qazandırdığı uğurlarına görə L.Zadəni 1989-cu ildə Yaponiyanın elm adamlarına verilən ən yüksək mükafat – "Honda" mükafatı ilə təltif etmişlər. Gec də olsa Amerkalılar bu nəzəriyyənin nə qədər qiymətli olduğunu anlayıblar. Bu gün bu nəzəriyyə Amerikanın "General Motors", "General Electric", "Motorola", "Dupond", "Kodak" və başqa dünyaca məşhur olan şirkətləri tərəfindən istehsalatda geniş tətbiq olunur və bu şirkətlərə böyük uğurlar qazandırır.

Bu böyük alimin qeyri-səlis məntiq nəzəriyyəsi ABŞ-da kosmik proqramların həyata keçirilməsində mühüm rol oynayır. Avropada çoxlu sistem və qurğular, xüsusi "ağıllı" ekspert sistemlər hazırlanır. Hazırda Danimarkada qeyri-səlis məntiq əsasında işləyən sement sobaları istehsal edilir.

Əgər professor Albert Eynşteyn fizikada inqilab edib, klassik mexanika ilə kvant mexanikasının sərhədini göstərdisə, L.Zadə "qeyri-səlis riyaziyyat" adlanan alternativ riyaziyyat yaratdı. Bu isə riyaziyyatın, kibernetikanın, informatika və hesablama texnologiyasının inkişafında yeni bir dövr açdı. Beləliklə bu nəzəriyyə bütün dünya elminə və texnologiya sahəsinə geniş nüfuz etdi.

Bu gün L.Zadə bir çox xarici ölkə akademiyalarının üzvüdür. O, çoxlu sayda mötəbər cəmiyyətlərin və fondların mükafatlarına layiq görülüb və medallarla təltif edilib. O, onlarla xarici dövlət və ictimai təşkilatların fəxri doktorudur. Həmçinin L.Zadə AMEA-nın fəxri üzvü seçilib. Bundan başqa o, qeyri-səlis məntiq, idarəetmə və Soft Computing sahəsində 54 beynəlxalq jurnalın elmi redaktoru və ya redaksiya heyətinin üzvüdür.

Bu gün L.Zadə dünyada əsərlərinə ən çox istinad edilən alim sayılır. Təkcə 1990-2000-ci illərdə onun əsərlərinə 36000-dən çox istinad edilib. L.Zadənin bütün bu uğurları şübhə yoxdur ki, ən çox bizi sevindirir. Bunun yalnız bir səbəbi var: çünki O, azərbaycanlıdır!..



Ə.Hüseynzadə

# Tolstoyluq nədir?

Keçmiş əsrlərdə və başqa məmləkətlərdə Şekspirin, Hötenin, Can Cak Russonun, Viktor Hüqonun ədəbiyyatda dəyəri və əhəmiyyəti nədirsə Tolstoyunda zəmanəmizdə dünyada əhəmiyyəti o qədərdir.

Ailənin fərdləri o ailənin üzvləri olduğu kimi millətlər də bəşəriyyətin üzvüdür. Ailə üzvləri kimi millətlərdə heç vaxt bir yaşda olmayıblar. Bəziləri hələ də uşaqlıq və ya cavanlıq yaşlarında qaldıqları halda digərləri elmi-kamala yetişmiş, ya da ömürlərinin sonuna üz tutublar.

Bir şəxsin arabir mübtəla olduğu xəstəliklə ömrün son əlaməti sayılmayacağı kimi, millətlərində zaman-zaman düçar olduqları siyasi xəstəliklər, ictimai-böhranlar onun məhvi kimi sayılmamalıdır. Həqiqətən həlak edici xəstəliklər, şəfası olmayan xəstəliklər vardır. Fəqət bununla yanaşı daha gözəl bir sağlamlıq hasil olan xəstəliklər vardır. Ömrün sonuna çatmaq ayrı, xəstəliyin əlamətləri ayrıdır. Bəzi şəxslərin zaval və ölümləri ilə bərabər nəsilləri də kəsilmişdir. Bəzilərinin də əksinə olaraq vəfatlarından sonra öz nəsillərindən övlad və nəvələri qalır ki, bunlar uşaqlıqdan başlayıb, yenidən həyat səhifələrini bir-bir keçməyə başladılar.

Millətlər də elədirlər. Bəziləri finikiyalılar, ya da assurilər kimi bütövlükdə nəsli kəsilmiş olurlar. Bəziləri də tələf olduqca yerlərində yeni nəsillərindən bir qövm təzə bir həyata başlayar. Turanın (Tukuyə) oğuzları ilə İranın Zənd əhalisi belədirlər. Tukuyələrdən sonra uyğurlar, uyğurlardan sonra bugünki, Türk və tatarlar Zəndlərdən sonra qədim Pəhləvilər, Pəhləvilərdən sonra bugünki Farslar bir həyata başlayırlar.

Rusiyada bu gün müşahidə etdiyimiz vəziyyət isə məhv olmayıb, bir xəstəlik sayılmalıdır. Mançuriya iztirabı, inqilab böhranın xəstəlik əlamətləridir. Bu xəstəlik hər nədənsə tamamı ilə rusların kamillik yaşına yetişdiyi vaxta rast gəldi. Bəli hal-hazırki əsr bəşəriyyətin bir mühüm üzvü olan rus millətinin kamal dövrüdür. Çünki meyvələrin bolluğu və yaxşılığı bir ağacın tam yetişdiyinə dəlalət etdiyi kimi bu gündə incəsənət elmi və ədəbiyyatın həddindən ziyadə incəliyi rusların kamal yaşına yetişməsinə dəlil və sübutdur. Millət ağacının meyvələri elm və mərifət əsərləridir. Bu gün Rusiyada yetişmiş filosof və ədiblərə bütün Avropa və Amerika qibtə edir. Lakin bu dəstənin seçiləni şübhə yoxdur ki, Qraf Lev Tolstoydur. Tolstoy sadəcə rusiyanın deyil, bəlkə bütün cahanın ən böyük ədiblərindən biridir. Onun yazdığı əsərlər bir çox millətlərin dilinə tərcümə olunur. Sürətlə və milyonlarca nüsxələrlə yayılmışdır. Onun hər bir sözü böyük bir diqqətlə izlənilir. Hər bir nəsihəti böyük bir rəğbətlə qiymətləndirilir. Onun fikirlərindən mədəniyyət aləmi feyziyab olurlar.

Ancaq bu fikirlər səhv və xətalardan uzaq deyildir. Tolstoy çox vaxtlar zəlalətə də düşür. Lakin bu səhv və xətalar, bu zəlalətlər dəxi incəsənət olub bəşər ruhunu mənəviyyata sövq etdirir. İçtihad sahiblərinin mənəviyyatını coşdurmaqla həyati və ictimai məsələnin həllinə kömək edir. Tolstoy bəlkə mütəfəkkir deyildir, lakin hər halda dərin bir incəsənət dəryasıdır.

Keçmiş əsrlərdə və başqa məmləkətlərdə Şekspirin, Hötenin, Jan Jak Russonun, Viktor Hüqonun ədəbiyyatda dəyəri və əhəmiyyəti nədirsə Tolstoyunda zəmanəmizdə Rusiya ölkəsində əhəmiyyəti o qədərdir. Zatən Rus və Avropa tənqidçisi onu qeyd olunan məhşurlar ilə müqayisə etməyi sevirlər. Ancaq bu cür müqayisələr Tolstoy haqqında bizə bir fikir verə bilməz. Çünki qərbin o məşhur ədibləri belə Tolstoyun özü kimi bizim şərq camaatına hələ də məchuldur. Tolstoyun olduğu mövqe, tutduğu məslək haqqında bir düzgün fikir əldə etmək üçün onun bənzərini müsəlman aləmində arayaq. Yeni Türklərdən Namiq Kamal bəyə xatirə gəlsə də, ancaq onu Tolstoyla müqayisə etmək olmaz. Çünki Namiq Kamalın ömrü vəfa etmədi.

Kamal bəy kamillik yaşına çatdığı vaxtlarda və ancaq əlli, əlli beş yaşlarında olduğu halda ölkənin hazırki zülmkarları onu "Saqqız" adasına sürgün etmişlər və orada da ölmüşdür. Kamal bəy Rusiyada və ruslar arasında dünyaya gəlsəydi bəlkə həqiqətən bir Kamal olardı, Tolstoyda Türkiyədə olsaydı əsla Tolstoy olmazdı, daha doğrusu Rusiya idarə hökuməti Osmanlı hökuməti qədər olmayan, saxta, Osmanlı idarəsi Rusiyakı qədər düzgün idarə olsaydı, Kamal bəy Tolstoy olmasa da Tolstoy mərtəbəsinə ucalar, Tolstoy isə Kamal bəy olmasada, Kamal bəy dərdinə mübtəla olardı, birdə bu iki şəxsiyyət arasında heç bir üslub bənzərliyi yoxdur. Kamal bəy hərarətlə danışan ədəbiyyatçı və şairdir. Onun kəlamı atəşli od kimi yaxar.

"Sərdtənan atəş əz u yaftənd..."
("Soyuq bədənlilər atəşi ondan tapdılar").

Tolstoy isə şirin dilli bir həkimdir. Sözləri çox vaxt ürəkləri yananlar üçün zülal yerinə keçər.

16988

"Məxzənül-əsrar" ("Sirlər xəzinəsi"nin) dili ilə burada -

"Gərmrəvən ab ze u yaftənd"deyə bilərik. Yəni ("Ürəyi yananlar suyu ondan tapdılar").

Hər nə hal isə ətrafın mədəniyyət dərəcəsinin müxtəlif olmasındadır, nədəndir Türklər arasında Tolstoyun bənzərini tapa bilmirəm.

İrana keçək. Burada üç böyük şair vardır ki, onların üçünü bir araya gətirib, Tolstoy ilə müqayisə etsək, bəlkə bu ədib haqqında daha dürüst fikir əldə etmiş olarıq. Üç şairdən muradımız Firdovsi, Sədi və həkim Sənaidir. Əsərlərin mənzum və mənsur olmaq kimi, zahiri fərqinə də əhəmiyyət verməyək, mənaya baxaq. Tolstoy ayrı-ayrılıqda bu üç şairin heç biri deyildir. Fəqət hər birindən guya bir hissə alıb nəşrində cəm etmişdir.

Tolstoyun ədəbi həyatı üç dövrə bölünə bilər: Birinci dövrü Firdovsiyanə; ikinci Sənayeyə bənzər; üçüncü Sədi kimi. Birinci dövründə Tolstoy Firdovsi kimi bir "Şahnamə" yazmışdır. "Hərb və Sülh" adlı nəhəng əsəri bir rus şahnaməsidir. Firdovsi Keykavus və Əfrasiyab dövründə hazırki İranlılarla Turanlıların mübarizə və müharibələrinə vəsf və tərif edir. Tolstoy birinci Aleksandr və birinci Napolyon zamanından ruslarla fransızların cəng və cidalını təsvir edir. Hər iki əsərdə hekayələr silsiləsindən ibarətdir. Hər iki əsərdə insan gah camaat və el şəklində, gah şəxs və fərd halında təsvir olunur. Hər iki ədib ara-sıra bəşər ruhiyyəsinin dərinləşməsinə, genişlənməsinə girişirlər. Hər iki ədib xeyir və şərin nədən ibarət olduğunu araşdırmaqda böyük bir qeyrət və cəsarət göstərmişlər. Hər ikisinin fikri mütəfəkkiranə bir dərəcədə kəskindir. Hər ikisi də əsərlərini öz millətlərinin tarixi sənədlərini dərin və ətraflı araşdırmaqdan sonra yazmışlar. Hər ikisi də vətənpərvərdir. "Hərb və Sülh"də elə yerlər vardır ki, Tolstoy Firdovsidən üstündür. "Şahnamədə" elə beytlər vardır ki, Firdovsi Tolstoydan üstündür.

Ancaq zənnimizcə "Şahnamə" daha şairanə və yüksək bir səviyyədə olub İslam dövrünə qədər olan bütün İran tarixini yazıb sona çatdırmışdır. "Hərb və Sülh" isə daha təbii olduğu halda natamamdır. Çünki Rusiya tarixinin bir qismi ilə kifayətlənmişdir. Firdovsi ömrünün axırına qədər tutduğu məsləkdən ayrılmadığı halda, Tolstoyun həyatında mühüm bir böhran baş verdi. Bu böhrandan sonra başlayan ikinci dövrdə Tolstoy artıq nə Homerdir, nə də Firdovsi. Burada Tolstoyun halı həkim Sənainin halını xatırladır. Məlumdur ki, Sənainin həyatında mühüm bir dəyişiklik böyük bir böhran peyda oldu. Sənai əvvəla dünyapərəstkən ömrünü paytaxtlarda padşah və kübar məclislərində keçirməkdə ikən günün birində bu yolda bada gedən ömründən və o qədər yazmış olduğu əsərlərinə nifrət edib, illərcə cəm etmiş olduğu şeir-divanını yandırdı. Özü də bir guşəyə çəkilib dünyadan əl çəkdi. Bundan sonra Sənainin mücahidələri Allah yolunda olub, yazdığı şeylər, üstün əxlaqa, dini hökmlərə, mənəviyyata dair idi. Sənainin fikri çox vaxt cavabsız qalan dərin-dərin məsələlərlə iztirabdadır. Bununla bərabər biçarə Sənai, özlərini din və məzhəb keşikçiləri bilən əsrin üləmalarının danlağına düçar oldu. Onun "Hədiqə"si (bağça) İslam əqidəsinə müxalif hesab olundu. Bütün bu hallar zəmanəmizdə Rusiyada Tolstoyun başına gəldi. Tolstoy ömrünün başlanğıcını Peterburqda hay-küy içərisində keçirən, əhli dünya bir zat ikən, sonda bütün keçmişinə lənət oxuyub, o vaxta qədər yazmış olduğu "Hərb və Sülh", "Anna Karenina" kimi mötəbər əsərindən özü nifrət etdi. Şübhə yoxdur ki, bu əsərlər mətbuat vasitəsilə işıq üzü görməli və yayılmalı idi. Sənai kimi Tolstoyda onları cəm edib odda yandırdı. Fəqət hər halda Tolstoy bu dəyişiklikdən sonra filosoflar kimi vaxtını bir müddət şübhə və tərəddüdlər içərisində keçirir, dünyanın faniliyi ona böyük ümidsizlik verirdi. Tolstoy bir an həyatın əlindən xilas olub, ölmək istəyir. Fəqət nədənsə ölməyir. Yavaş-yavaş bir nicat yolu sezməyə və o nicatı da dində görməyə başlayır. Millət və millətlərin dini kitablarını araşdırmaqla məşğul olur. Bu məqama yetişdikdən sonra Tolstoyun bütün yazdığı risalələri dinə, əxlaqa aiddir. Bu risalələrin çoxunda Tolstoy hazırki xristianlıqda batili haqdan ayırmağa cəhd etdiyi üçün bu üzdən keşikçilərin tənə və məzəmmətlərinə giriftar olub, nəhayət rus kilsəsindən qovulur.

Buraya qədər həkim Sənai ilə Tolstoy arasında oxşarlıq zənn edirəm tamdır. Ancaq bənzərlik burada bitir. Bundan sonra Tolstoy artıq Sənai də deyildir. Sənai ömrünün sonuna qədər sözündən dönməyib, tənhalığa çəkilib. Tolstoy isə var-dövlət hissinə nifrət elədi. Lakin tənhalığa çəkilmək qənaətinə də gəlmədi. Onun fikrincə kübar aləmində kefli günlər keçirib, seçilmiş adamlara məxsus "Şahnamə"lər, "Hərbnamə"lər, "Məhəbbətnamə"lər yazmaq, insanlığa yaraşan mücahidələrdən sayılmayacağı kimi bir kənara çəkilib Münacatlar, Tövhidnamələr, yazmaqda Allah yolunda çalışmaq deyildir. Ağıllı-ədib, kamil-insan, elə xalqa qoşulmalıdır – bədənin bütün əzaları ilə, qolla, ayaqla, barmaqla, beyinlə, alın təri ilə işləyib çalışmalıdır. Əkinçi kimi, fəhlə və hambal kimi, dərzi ya başmaqçı kimi iş görə bilməlidir. Və qısacası çalışa-çalışa insanlara xidmət etməlidir. Yazıb pozmanın o qədər əhəmiyyəti yoxdur. Hər nə yazılsa belə əksəriyyəti avam camaatdan ibarət olan insanlara məxsus yazılmalıdır. Bu fikrə gəldikdən sonra Tolstoy, məsləkini təqib edənlərə ibrət olmaq üçün insanlara qarışır. Bir kəndli kimi yaşamağa, kəndli kimi yatmağa-durmağa, yeməyə-içməyə, geyinməyə, işləməyə başlayır. Avam camaatın məişətini islah etməyə, əxlaqını qorumağa, fikirlərini işıqlandırmaq üçün hər kəsin anlayacağı bir dildə, çoxlu kiçik hekayətlər, risalələr yazmışdır və bütün kənd əhalisi bunlardan istifadə etmiş və feyz almışdır.

Bu gün rus kəndlilərinin əlində olan kitabçalar əsasən Tolstoyun əsərlərindən ibarətdir. Bu hal ilə Tolstoy rusların Sədisi olmuş olur. Zənnimcə İrandan hətta bütün müsəlman aləmində heç bir ədib, heç bir şair avam insanların, yəni bütün əhalini Sədi qədər ədəbiyyatdan istifadə etmədi. Kimsə, dili, ümumi insanların anlayacağı bir şəkildə onun qədər xalqa gözəl əxlaq dərsi verə bilmədi. Kimsə onun qədər yaşamağın hikmətini camaata öyrədə bilmədi.

Sədi hələ özü həyatda ikən əsərləri müsəlman aləminin hər tərəfinə, hər guşəsinə yayılmışdı. Bu gün İranda bəlkə müsəlman məmləkətlərinin çoxunda Qurani-Kərimdən sonra ən çox nəşr olunan kitab "Gülüstan"dır. Savadlı-savadsız, az-çox, rifah ilə yaşayan hər bir müsəlmanın evində "Gülüstan" tapılar.

Qoca və cavan, kişi və qadın, böyük və kiçik, fəqir və zəngin, hər kəs "Gülüstan"ın hekayələrini bilir, onun beytləri əkinçidən başlayıb, Şah sarayına qədər hər kəsin ağzında əzbərdir.

Sədi də bugünki Tolstoy kimi uzun müddət yaşamış, uzun səyahətlərə çıxmış, əsgərlik etmiş, dünyanın istisini-soyuğunu görmüş. Əsərləri həyat təcrübəsi ilə doludur. Sədi, həyatın özü kimi gah gülür və şadiman olur, gah qəmgin və məyus olur, gah lətifə söyləyir, gah da faciə yazır. Xoşbəxtlərə nəsihət edər, fəlakətə düçar olanlara təsəlli verər. Tolstoy da bu anda belədir. Tolstoy məsləkinin əsası dindarlıq və elpərəstlikdir.

Bu "elpərəstlik" haqqında bir nəbzə izahat verək. Zəmanəmizdə Tolstoy ilə bərabər bir sinif rus alimlərinin ağzında, qələmində bir "Narod" kəlməsi dolaşır.

Bu "Narod" nədir? Bunu Türkcəmizə necə tərcümə edək? Tolstoyun narod deməkdə məqsədi nə millət nə ümmət nə də camaatdır. Bu bir xalq, insanlar, avam camaat, kənd əhalisi, əkinçi, ya fəhlə camaatı kimi kəlmələrlə tərcümə edilə bilməz. Daima qüsurlu qalar. Mənə qalırsa bizim xalis türkcə olan "el"dən başqa heç bir kəlmə haqq ilə bu "narod" mənasını ifadə etmir. O halda "narodniçestvo" sözünün də tərkibi bir az zəif olsa da, ancaq elpərvərlik ya elpərəstlik kimi mürəkkəb kəlmələrlə tərcümə edə bilərik. Məhz elpərvərlik ilə həqiqi və feli, fəqət geniş bir dindarlıq tolstoyluğun əsasıdır. Gələcək nömrədə Tolstoyun bir azda tərcümeyi-halından bəhs edib, sonra vaxt və fürsət tapdıqca əsərlərindən tərcümə edib, "Füyuzat"da dərc edəcəyik. Yazıçılardan kim olursa-olsun, əsərindən camaatımızın əhvalına müvafiq olanları seçib, açıq, sadə, fəqət ədibanə bir surətdə tərcümə edərsə, məmnuniyyətlə qəbul etməyə hazırıq.

*Davamı var...*

*1 noyabr 1906, № 1*



Əzəmətli dağların, şimşək çaxan buludların, ulduzlarıyla bir tarlaya bənzər səmaların yüklənmədiyi əmanəti alaraq gecənin qaranlıqlarını yaran, susuz çöllərdən keçən, dayanmağı, durmağı hünərsizlik sayan, önündəki maneələrə, sədlərə dolaşmadan ancaq ülvi vəzifəsini yerinə yetirən fatehlərin küheylanları ...
Onların keçdiyi çöllər gülüstana, gecələr açılmış sübhlərə, maneələr isə sadəcə toza-torpağa çevrilər.



# İntellektuallıq

## (əlçatmaz üfüqləri seyr edənlər)

*Abdullah Gənc*

Hər kəsin özünəməxsus ölçü vahidi var. Birisi metrlə digəri isə millimetrlə ölçər. Cəmiyyətdəki bu fərqli dəyərləndirmənin sahəsi hər keçən gündə daha da artır və düşüncələrdə, təfəkkürlərdə haçalaşma meydana gətirir. Bəzən bu fərqli fikirlər mübadiləsi yeni inkişaf yollarının kordinatlarını cızır. Bəzən də xaoslara, qarşıdurmalara zəmin yaradır. Onu da qeyd edək ki, əksər fikirlər, qərarlar fərdin xarakteri ilə son dərəcə bağlıdır. İnsan xarakteri dəyişməzdir. Xarakterin dəyişməsinə sərf olunan bütün addımlar insanın yaradılış qayəsinə ziddir. Həyat ziddiyyətlər üzərində qurulub və beləcə də davam edir.

Ona görə xarakter yalnız doğru istiqamətə yönəldilməlidir. Burada əsas faktoru şəxsin elmi karyerası və fundamental bilgisi təşkil etməlidir. Aradakı bu münasibəti tarazlamaqla insan dünyanın dilini anlar. Bu anlayış içərisində olanlarla olmayanlar bir ömür sərmayəsini bu şüura uyğun xərclərlər. Ömrünü israf edən, sərvətini yanlış yolda xərcləyən gerçəyi gördükdə də, həm israfdan həm də yanlışlıqdan uzaqlaşaraq fədakarlığa başlar, comərdlik və xərcləmə xarakterini sadəcə xeyirə çevirərlər. İctimai şüura daxil olan bu prinsipial mövqe özünün müsbət nəticəsini ən bariz nümunələrlə təsbit edir.

Mədəniyyətlər, kəşflər, tərəqqilər dünya evində başlar və orada sona çatar. Odur ki, dünyaya hikmət evi demişlər. Hikməti hikmət sahibi anlar. Hikmət həqiqətini idrak etmədən ömür yatrımını dərk etmək də çətindir. Bu fərqliliyi görməyən və yaxud fərqinə varmayan, düşüncəsini mədəsinə qida edər, yediyinin haradan gəldiyini bilməz, qaşla-gözün yerini dəyişik görər və baxış bucaqlarını itirər. Gözü, könlü həqiqətdən uzaq böyük göstərilmişlər – arxasınca apardıqlarını mənzilə çatdırmamış, həm özlərini, həm də onları həlak etmişlər.

Qəlbən dərinləşən, ruhən bütövləşən varlıq aləmini tanıyan, səmanın dodağından düşənləri can qulağıyla dinləyənlər, dünya üzərindəki təhlükəli hadisələrin dəmir pəncəsi altına düşərək əzilməzlər. Nə qorxunc situasiyaların qarışıqlığından çəkinərlər, nə də sevinc doğuran nailiyyətlər önündə titrəməzlər. Amalları yaşama deyil, yaşatma mücadilələri, yemək deyil, yedirtmə həvəsiylə davam edir. Getdikləri yolun doğruluğuna inanan, əsrlərinin



**Kainatı məktəb kimi görənlər hesabını verə biləcək bir həyat yaşamağı ömrün mayası hesab edirlər. Daha sonra bəşəri təsəvvürün qütb ulduzu kimi hər an qaranlıqlar arasından işıq saçarlar. Bütün zamanların insanlarına faydalı, mənfəətli və ibrətli səhnələr təşkil edərlər.**

Ömür yatırımını dərk edənlər insanın şəxsiyyət ağacını əxlaq tarlasında əkənlərdir.

bütün fənlərinin sirrinə vaqif olan, işıq sürətiylə düşünərək, zamanın önünə keçərək hadisələrin nəticələrini görənlər yanındakıları itirməzlər. Onların qəlbi qədər ruhu, ruhu qədər də beyinləri yetişmiş kimsələrdi. Gecələri gündüzləri kimi görərlər, qışı da bahar qədər sevərlər. Həyatı sıxaraq sıxıntısını deyil onun niqabını qaldıraraq, əlçatmaz üfüqləri seyr edərək yaşarlar. Kainat sarayının bütün gözəlliklərini ruhuna hopdurmuş vücudu yerdə gəzərkən, təfəkkürüylə qütbləri dolaşan cəhətlərə meydan oxuyan, könül gözlərinə oranın sürməsini çəkənlər həqiqətləri idrak edərlər. Daha sonra haqqa qovuşma sevdasıyla ayları, illəri hicranla yola salarlar. Küsmək, incimək yorulmaq kəlmələrinə çox yaddırlar. Başları buludlara yüksəlmiş olduğundan dünyanı selə-suya qərq edən buludların şimşəkləri həmişə onların önündə toqquşar. Gözlərini qırpmaz, ümiddən düşməzlər və qəlb dodaqlarını sevginin tumurcuqlarıyla bəzərlər. Hər keçən gündə yeni ruhla tarixin simasında dəyişiklər edərlər. Əcdadımız tarixi keçmişimizi belə qurmuşlar. Zamanın axarına təsir edərək onu millətimizin xeyrinə işləməyi məcbur etmişlər. Bu həqiqəti idrak edən böyüklərimiz müasirlərimizin də onu davam etdirməsini istəmişlər. Zamanəsinə hakim millətlər, gələcəyini onun üzərində qurmağa müvəffəq olarlar. İnsanımız artıq millətimizin kültürünün mənəvi qaynağa bağlı olduğunu bilir.

Çağımızın maddi və texniki tərəqqisi artdıqca əxlaqi, mənəvi sahələr böhran halına düşür və durmadan xərçəng xəstəliyi kimi cəmiyyətlərin ruhuna sarılır. Etiraf edək ki, bütün ölkələr bundan öz nəsibini alırlar.

Həyatda hər şey açıqdır. Vicdanlar, ruhlar, aqibətlər açıqdır. İnsanlar hikmət nəzəri ilə baxarkən pərdələr çəkilər, düşüncə üfüqləri genişlənərək məhdud görüşlərin əsiri olmaqdan qurtular. Sonra isə yer üzünün memarı olduğunu qəbul edər, kainat sarayına elm qapısından girər. O saraya həqiqi elmin qapısından daxil olanlar insanlığı hasara alan dəmir divarları yıxaraq, qürur və cəhalət sərxoşluğuna batanları xilas edirlər. Artıq elm sərhədlərini bilməkdədir. Elm əldə olan informasiyanın, bilginin hikmətlə istifadəsi kimi də başa düşülə bilər. Kosmik nizamın, həyatverici mənzərələrini müşahidə etmək, kainatın səsini eşitmək, ona cavab vermək yalnız elmin işığında gerçəkləşir.

Kainatı məktəb kimi görənlər hesabını verə biləcək bir həyat yaşamağı ömrün mayası hesab edirlər. Daha sonra bəşəri təsəvvürün qütb ulduzu kimi hər an qaranlıqlar arasından işıq saçarlar. Bütün zamanların insanlarına faydalı, mənfəətli və ibrətli səhnələr təşkil edərlər. Yazılması ən çətin dastanları tarixin ağ səhifələrinə asanlıqla qeyd edərlər. İnsanın intellektual gücü onun mənəviyyatıdır. Həyatı boyu mənəvi dəyərləri qoruyan millətlər insanlığın yol göstəriciləri olmuşlar. İntellektual gücün mərkəzi ailədən başlar. İlk məktəbin, cənnət həyatının bir şöbəsi olan ailənin əslində ilk dəyərlər müəssisəsi funksiyanı daşıdığının fərqinə varan xalqlar dünya mədəniyyətinə fərqliliklər təqdim etdilər.





# Hürriyyət və Vəhdət şairi

## Məhəmməd Hadi

(1879-1920)



*Ağa Məhəmməd Hacı Əbdülsəlim oğlu – şair, ədəbiyyatşünas, tərcüməçi.*

*1879-cu il Azərbaycanda Şamaxı şəhərində tacir ailəsində anadan olmuşdur. Atasını kiçik yaşlarından itirdiyindən nənəsinin himayəsində yaşamışdır. İlk təhsilini dini mədrəsədə almış, ərəb və fars dillərini mükəmməl öyrənmişdir. Şamaxı zəlzələsindən sonra Kürdəmirə köçmüş, burada məktəbdarlıq etmişdir (1902-1905). Həştərxanda çıxan "Bürhani-tərəqqi" qəzetinin əməkdaşı, sonra redaktoru, Bakıda "Həyat" qəzeti və "Füyuzat" jurnalı redaksiyalarında müxbir olmuşdur. Azərbaycan mətbuatında şeirlə ədəbi-tənqidi və puplisist məqalələrlə müntəzəm çıxış etmişdir. İstanbulda çıxan "Tənin", "Sərvəti-fünun" redaksiyalarında işə dəvət olunmuş, türk ədəbi mühiti ilə sıx əlaqə saxlamışdır. Siyasi baxışlarına görə Yunanıstanın Saloniki şəhərinə sürgün edilmişdir (1912-1914). Birinci Dünya müharibəsində müsəlman alayı tərkibində ön cəbhədə olmuşdur. Ordudan tərxis edilib Gəncəyə qayıtmışdır, Bakıda "Bəsirət", "Azərbaycan" və s. qəzetlərdə əməkdaşlıq etmişdir (1918-1920). İctimai-siyasi məzmunlu şeirlərində və məqalələrində elmi, maarifi təbliğ edir, dövrün haqsızlıq və rəzalətlərinə qarşı çıxır, azadlıq mübarizəsinə, Səttarxan hərəkatına rəğbət bəsləyirdi. Əruz vəznində yazdığı şeirlərində və məqalələrində ərəb, fars tərkibli sözlər işlətmişdir. Milli ədəbiyyatda mütərəqqi romantizmin görkəmli nümayəndəsi hesab edilir. Nizami Gəncəvi, Ömər Xəyyam, Hafiz və başqa sənətkarların poeziyasın'dan tərcümələr etmişdir.*

*1920-ci ilin mayında vəfat etmiş, Gəncədə dəfn olunmuşdur.*

*Aygün Şəbiyeva*

Azərbaycan diyarı tarixən mərd mübarizləri, yenilməz qəhrəmanları, sadə və böyük qəlbli insanları, əvəzsiz sərvətləri və görkəmli şəxsiyyətləri ilə tanınmışdır. Uca Yaradan bu diyarı sevmiş və ondan heç nəyi əsirgəməmişdir. Elə bu yurdun övladlarının da Allaha sevgisi sonsuz və uca olmuşdur.

Allah tərəfindən sevilib-seçilən insanlar yaşadıqları dövrdə xalqın sevinc və kədərinin, arzu istəklərinin tərcümanı olmuşlar. Onlar öz poetik əsərləri ilə xalqı ətalətə, geriliyə və zülmə qarşı mübarizəyə səsləmiş, vətənə dərin məhəbbət hissi təbliğ etmişlər.

Bu baxımdan Vətən sevgisi ilə alışıb-yanan, millətinin maariflənməsi üçün çalışan xalqımızın görkəmli şairi Məhəmməd Əbdülsəlimzadə Hadi Şirvaninin yaradıcılığı diqqəti cəlb edir.

Hadi hələ kiçik yaşlarında ikən öz valideynlərini itirmiş, ana qucağı əvəzinə, nənə dizləri üstə öz kövrək körpəliyini keçirib, ata qayğısı və nəvazişindən məhrum olmuş, lakin onu kiçik yaşlarında himayə edən yaxın qohumu Mustafa Lütfidən valideyn şəfqəti görmüş, mənəvi tərbiyə almış, ondan ərəb dilini öyrənmişdir. Məhəmməd Hadi uşaqlıq illərində məhəllə məktəbi, mədrəsə təhsili görmüşdür. Açıq fikirli, romantik ilhamlı, sərbəst bir gənc kimi böyüyən Hadi yetimlik və kasıblığa baxmayaraq oxumaq və öyrənmək sevdasından əl çəkmirdi. Bu arzuların həyata keçməsi üçün çırpınırdı:

Oxumaq üçün nə qədər dadü fəğan etdimsə
Olmadı zərrə əsərbəxş şu istimadım
Dağa dersəm, eşidir sonra verir əkse-səda
Daşa dönmüşlərə əks eyləmədi fəryadım.

Şairin gənclik dövründə, sevdiyi bir xanım da vardı, amma ona qovuşmaq nəsib olmadı. Hadi bundan sonra heç kəsə könül verməди və ömrünün sonuna qədər evlənmədi. Lakin bütün bunlara baxmayaraq, onun əsl sevgilisi, vüsalı, intizarı var idi. Bəs o nə idi?

Ey Vətən! Ey pəriyi-vicdanım!
...Səni sevmək deyilmi imanım?

Bu imanla XX əsr Azərbaycan ədəbiyyatının romantizm cərəyanının ən qüdrətli nümayəndələrindən birinə çevrildi. Məhəmməd Hadi türk, şərq və avropa ədəbiyyatlarını, fəlsəfəsini dərindən öyrənmiş və ədəbiyyat tariximizdə özünə layiqli yer tutmuşdur. İlk yazısı 1905-ci ildə "Həyat" qəzetində çap olunan "Bəyani-həqiqət"dir. Ədibin mətbuatda mütəmadi çap olunan əsərlərinin əsas mövzusu xalqı maarifləndirmək, elmli, bilikli, mədəni gənclər yetişdirmək idi. O yazırdı:

Təhsil ediniz keçməsin ovqat fəsanə!
Tənbəllik üçün düşməmişsiz məhdi-cəhanə,
Edam ediyor cəhlpərəstane zəmanə,
Biz də olalım şöylə həmahəngi-təranə...

Yaxud:

Ey bağe – Vətən gülləri, ey tazə çiçəklər!
Ey cənnəti - elm içrə ki nasuti mələklər!
Balaları pərvazə qılın, səyü əməklər,
Sizdən Vətənin gözləri hürriyyəti bəklər.

Məncə Vətən qəlbimizdə bir közərti kimidir. Bizlər nəfəs aldıqca o közərti artır, qəlbimizə hərarət, çöhrəmizə təbəssüm verir. Bu, Azərbaycan ədəbiyyatının klassiklərində də, o cümlədən, Hadidə də belə idi – həzin bir lirikada özünü göstərirdi. Şeirin şüara çevrildiyini, fəal bir mübarizə vasitəsi olduğunu duyur və mövzularının hamısını həyatdan alır. Cəhalətdən xilas olmağın, insani hisslərin müqəddəsliyinin yollarını axtarırdı:

Azadə gərək şəxs, süxən, fikrlə xamə,
Hər kəs gələ hürriyyət ilə şövqə, xumarə,
Ta kim, ola insan qədəməndaz məramə,
Sərbəxtlik ilə olunur mülk idamə,
Gər qalsa qüyudatdə, viran vətəndir.

Bütünlüklə şair xalqını azad və xoşbəxt görmək istəyirdi. Bu xoşbəxtliyin əsası isə elm və məktəb idi. O bütün müsəlmanları vəhdətə - "ittihad"a çağırırdı. O, bu ideyalarını, fikirlərini həyata keçirməyə çalışırdı. Bu yolda isə ona "Füyuzat" ədəbi məktəbi daha geniş şəkildə imkanlar yaratdı. Çünki onun fikirləri Əli bəy Hüseynzadənin fikirləri ilə həmahəng idi. Onların hər ikisi üçün bir müqəssir var idi: – Cəhalət! Və bundan qurtarmaq üçün nicat yolunu xalqı maarifləndirməkdə görürdülər:

Cəhalətdir əsası zülmün cövri-xanimansuzu,
Maarif olsa, zülmün məhv olur, əlbəttə, bünyani.

Şair ordusunun müsəlləh əsgərlərindən olan Hadi lirikası romantizmin qanadlarında pərvaz edir. "Mən bir kitab, hər vərəqim bir kitabdır" – deyərək təmiz və saf fikirlərinin sönməz atəşi ilə alovlanmağa çalışdı. Bu alov isə sanki onu nurlu bir gələcəyə səsləyirdi.

Azərbaycan ədəbiyyatında Sabir realist bədii satiranı inqilabi ruhda oxucuya necə çatdırırdısa, Hadi də romantikada öz fikir və düşüncələrini eləcə çatdırdı.

Arazın o tayındakı düşmənlərə qarşı yönəldilən fikrə, 1905-ci il hadisələrinə, Bakıda yerli müsəlmanlara qarşı bolşevik-daşnak qəsdinə hər iki şairin münasibəti bir-birindən heç nə ilə fərqlənmirdi.

Bu hisslər Hadinin əsərlərində bir himnə çevrilmişdir. Bəli, şəhidlik və hürriyyət him-





**Məhəmməd Hadi inləyən bir neydir, azadlıq təşnəsidir. Millətinin nurlu sabahını arzulayan, onun eşqilə çırpınan haqq aşiqidir.**

ninə! Unutmayaq ki, "Vətən" anlayışı Hadi poeziyasında həmişə və hər yerdə əsas mübtədanı təşkil edir. Elə buna görə də Şərqdə ilk cümhuriyyətin Azərbaycanda bərqərar olmasını şair bədii alqışlarla qarşılayır.

31 mart qırğını, Cümhuriyyətin tənəzzülü Hadinin də şeirinin ovqatında, özünün ruhunda və səhhətində ölümlə nəticələnən böhran yaradır:

İmzasını qoymuş millət ovraqi-həyatə,
Yox millətimin xətti bu imzalar içində...

Şair günahsız insanların sürgün və həbslərdə çürüməsini qəbul edə bilmirdi. Çünki belə haqsızlıqlar bəşərin bütün gözəl hisslərini məhv edirdi. Hadi xalqının doğma oğlu kimi istərdi ki, "övraqi-həyatda" öz millətinin imzasını görsün. Hadi bu böyük arzusunun həqiqətə keçəcəyinə inanırdı. Şair qalib olmaq üçün çıxış yolunu mübarizədə görürdü. Bu mübarizəni isə elm, maarif təşkil edirdi:

Nə zaman kəsbi-ülum etsə nisa,
Cismi-millət tapacaq onda şəfa.
Elmlə ruha müdavat olunur.
Elmlə kəsbi-füyuzat olunur.
Elmdir şəmsi-səbahi-əzəli,
Elm tənvir edər afaqi-dili.

Hadinin yaradıcılığında vətənpərvərlik və tərəqqi arzusu başlıca yer tuturdu. "Vətən!", "Vətən!" xitabları ilə insanların qəlbində vətən eşqi çırağını yandırmağa çalışırdı. Şairin bu səpgidə yazdığı şeirlərində də ictimai bir kədər ifadə edilirdi.

Ey səhneyi-fəcayeü ey məhşəri-əza!
Ey məzhəri-vəqayeü meydani-Kərbəla!
Xaməm deyir şu növhəni hər dəmdə bərməla!
Zilzali-qəflət ilə pərişan olan vətən!
Tufani-zillət ilə xüruşan olan vətən!

Bu şeir Hadinin iç yanğısıdır, qəlbindən süzülən bir mərsiyədir, ağıdır. Şair şeirini göz yaşları ilə söyləsədə amma gələcəyə böyük ümid bəsləyir, Azərbaycanın üzünə açılan səadət sabahını arzulayır və bunun bir gün baş verəcəyinə inanır:

Ey fitrətə müariz olan əhli-iştibah,
Siz sönsəniz sönün, sönəməz nuri-intibah.
Afaqi-kainata doğar şöleyi-sabah,

Hadi inləyən bir neydir, azadlıq təşnəsidir. Millətinin nurlu sabahını arzulayan, onun eşqilə çırpınan haqq aşiqidir.

Yüksək dilək, ay dilək.
Aydın dilək "ay" dilək.
Yolçu yaz, yol üstünə -
İşığını yay dilək.
Məyus olma amandır,
Məyus olma yamandır,
Qorxaq diləksiz yaşar.
Millətim qəhrəmandır.

Bir-birindən gözəl və qəlb oxşayan bu misralar bir şairin ürəyinin döyüntüsüdür. Və bu fikirlərlə inandırırdı ki, Azərbaycan bir gün müstəqil olacaq və o, nurlu sabahlar bir gün gələcək. Hadi millətinin yüksək mədəniyyətə, xoşbəxt gələcəyə nail olacağına inanırdı.

Hadi mütəfəkkir, şair idi. O, düşüncələr aləmində axtarışda idi. Həyatın, yaranışın və dünyanın mənasından bəhs edən şeirlər şairin mənəvi aləmi üçün çox səciyyəvidir.

Hadi yaradıcılığının əsas mövzularından biri də azadlığın, hürriyətin tərənnümüdür. Belə şeirlərində ictimai həyatdan çox təbiət səhnələri verilir, səma, ulduzlar, nəhayətsiz üfüqlər, kainatın gözəlliyi vəsf olunur.

Sənət xalçasına gözəl ilmələr vuran Məhəmməd Hadi təbiətin payız fəslinə bənzər zəngin bir yaradıcılıq yolu keçdi. Niyə məhz, payız fəslinə bənzətdim Hadi yaradıcılığını? Çünki payız təbiətin ən məhsuldar, ən "müdrik" və ən "qiymət"li ("qızılı payız" deyirlər ona ) fəslidir.

Millət dərdi Hadinin əsərlərində güclü kədərə çevrilib. Bu, xalqın ağır, dözülməz vəziyyətindən irəli gəlirdi.

O, yurddaşlarını vətənin xoşbəxtliyi uğrunda mübarizəyə səsləyirdi. Oxucusuna belə bir fikri dönə-dönə çatdırırdı ki, vətən üçün, vətənin uğursuzluğu üçün hamı məsuliyyət daşıyır.

Həssas şair qanlı müharibələrin törətdiyi fəlakəti, yaralı insanların əzablarını müşahidə etdikcə dəhşətə gəlirdi. Birinci Dünya müharibəsi illərində Qafqaz ordusu sıralarında müxtəlif döyüş cəbhələrində döyüşərkən bütün bu vəhşətlərin şahidi olmuşdu.

1918-ci ildə türk xalqlarının əzab-əziyyəti, müstəqil, azad yaşamaq istəyi və bu yolda şəhidlər verməsi şairi çox düşündürdü:

Türkün tökülən qanları bihudə gedərmi?
Diqqətlə düşün, yoxsa bu qan həpsi hədərmi?





Hər kəs ki, sevimli Vətənin bir parçasına çevrilir günəş kimi əbədi parlayır.

Məhəmməd Hadi Sabirlə, Mirzə Cəlillə, Haqverdiyevlə bir dövrdə yaşamışdır. Lakin açıq etiraf edək ki, onun yaradıcılığı tam, hərtərəfli tədqiq olunmamışdır.

Buna baxmayaraq Məhəmməd Hadinin zəngin ədəbi irsi ədəbiyyat tariximizin ən parlaq səhifəsidir.

Şamaxıda göz açan həssas qəlbli şairimiz Məhəmməd Hadi Gəncədə əbədiyyətə qovuşdu. Azərbaycan ədəbiyyatında Hadı poeziyası ağappaq qar üzərində sübhçağı salınan ləpirlərdir. Bu ləpirlər ədəbiyyat yollarında səssiz-səmirsiz irəliləyir. Hər addımında söyləyir: "Xalqa məktəb, elm, mədəniyyət lazımdır!"

Əziz oxucu! Hadi poeziyasını oxumağa, öyrənməyə çalışaq. Çünki bu poeziya dan ulduzu qədər uca, dağ zirvəsi qədər əzəmətli, bulaq suyu qədər saf, səhər mehi qədər həzin, bahar çiçəkləri qədər təravətli, bənövşə tək boynubükük, çinar kimi əyilməzdir!!!

Qaldır səmayi-şövkətə nəcmi-məalini,
Göstər bu ərzin əhlinə cahü-cəlalini!
İsbat qıl həyatını əqvami-aləmə,
Bəxş eylə bir həyati-novin Şərqi-əzəmə
Ey türk dövləti, ey bəxti-növcavan!

Məzarın nurla dolsun böyük şair Məhəmməd Hadi rahat uyu, artıq millətinin xətti var ovraqi-həyatda...

Əsərbəxş – təsir edən
İstimdad – yardım diləmə
Ovqat – vaxtlar
Fəsanə – əfsanə
Məhdi cəhanə – cahan beşiyinə
Cəhlpərəstanə – bilməməzlik
Həmahəng – bir qayda üzrə
Nasut – insanlıq
Bal – qanad
Pərvazə – uçmaq
Süxən – söz
Xamə – qələm, üslub
Xumarə – məst
Qədəməndaz – ayaq basan
Məram – arzu
İdamə – davam
Qüyudat – qeydlər
Cövri-xanimansuzu – dağıdıcı cəfa
Bünyani – təməl, özül

Ovraq – vərəqlər
Kəsbi-ülum – elm öyrənmə
Müdavat – müalicə
Tənvir – nurlandırma
Afaqi-dil – qəlb dünyası
Səhneyi-fəcaye – faciələr səhnəsi
Məhşəri-əza – qiyamət günü, əziyyət günü
Məzhəri-vəqaye – zühurun hazır olduğu yer
Bərməla – aşkar
Zilzali-qəflət – qəflət titrəməsi
Xüruşan – gurultulu
Müariz – etiraz edən
İştibah – səhv, yanlışlıq, şübhələnmə
İntibah – ayılma, dirçəlmə
Afaqi-kainat – kainat üfüqləri
Nəcmi-məal – dərin mənalı ulduz
Əqvami-aləm – dünya xalqları
Həyati-novin – yeni həyat
Şərqi-əzəm – Böyük Şərq
Bəxti-növcavan – cavan bəxtli

# Oyan, ARAZ!..



*Didərgin*

Araz, oyan, sözüm var,
Dərdim yer-göy dağıdar, oyan!
Lal axırsan, elə-bil
Mışıl-mışıl yatırsan,
Körpə tək yuxudasan, oyan!...
Coşduğun çağlar harda?
Ağörpəkli gəlini,
Südəmər körpələri,
Ağsaqqal-qarasaqqal
Nər igidləri
Aman vermədən
Qərq etdin.
Qəzəbli dalğalarda.
Qəzəbli dalğalarda...
Törətdiyin faciə
Ürəkləri dağladı.
Asiman da dözmədi.
Tufan qopdu, ağladı.
Oyan, cavab ver!

Cavab ver, Araz!
Ürəklər parçalandı.
Ayrı düşdü el-oba.
Sinəmdə od qalandı.
Oyan! Cavab ver!
Cavab ver, Araz!
Xəbərsiz oldu nədən
Koroğlum, Səttarxanım.
İki yerə bölündü.
Bütöv Azərbaycanım.
Ruhum, qeyrətim, canım.
Bütöv Azərbaycanım.
Tarix boyu boğuldum
Mən yenidən doğuldum.
Dövrəmdə hamı bir can
Çox çəkməz bil yenidən
Bir olan Azərbaycan!
Ruhum, qeyrətim, canım.
Anam, Azərbaycanım.



Pəncərə nəfsin qaranlıq zindanında yük, dünyanın həbsxanalarında dərd, hörümçəyin yurdunda tələ, qalada istehkam, evlərdə təbiətin seyr məqamı, könüllərdə isə kainat sarayına açılan və varlığın ruhuna tamaşa yeridir. Oradan süzülüb gələn işıqlar kainatdakı gözəllikləri, ehtişam dolu mənzərələri, ağlın idrak etmədiyi nizamı ən incəliyi ilə ruha hopdurar.



# VƏTƏN nədir?

Doktor Hüseyn Şərqi
"Xudafərin" jurnalının baş redaktoru



*El bilir ki, sən mənimsən,*
*Yurdum, yuvam, məskənimsən,*
*Anam, doğma vətənimsən!*
*Ayrılarmı könül candan?*
*Azərbaycan, Azərbaycan!*

**Vətən şəhidlərin ruhunda əbədiləşən, bütövləşən, yekunlaşan məfkurədir, inamdır, Vətən hər kəsin beynində yaradılan gerçək təsəvvürdür. Eynilə insanın atası, anası kimi hətta, ən çox sevdiyi körpəsi kimidir.**

Vətən hər kəs üçün bir anlam daşıyır. Kimlər üçün Vətən onun can və damarlarında axan qan, kimlər üçün Vətən onun cibində ya bank hesablarında olan pulun miqdarıdır. Vətən yetimlər üçün Vətəndir, Vətən çörəyini halaldan, onun torpaq və suyundan qazananın Vətənidir. Vətən kimsələr üçün ən yüksək sevgi və sayğıdır. Vətən bəzilər üçün ən müqəddəs duyğudur. Kimlər üçün Vətən arzuların qanad açıb uçan məkanıdır. Vətən, Vətənsevənlər üçün nə bank, nə villa, nə lüks maşın, nə də məqam və vəzifədir. Vətən onlar üçün şərəfdir, namusdur, daxilində yüksələn inamdır, minillər kök salmış bayraqdır, anadır və onun timsalında candır, o can ki, onda tutan can məkanı yalnız və yalnız onun üçün ölərək haqqını əda etmiş olurlar.

Vətən bəziləri üçün ulu əcdadların ruhu, tarix boyu qalaq-qalaq, üst-üstə yatırılmış babaların-anaların sümükləridir. Vətən bunlar üçün bir loxma çörəkdir, o çörək ki, öpülür və göz üstə qoyulur. Vətən sevgidir o sevgi ki, ana qədər uca məqamdır. Ona görə ki, o Vətən onların ruhuna qanına hopmuşdur.

Vətən dünya deyil, dünyəvi deyil, Vətən özəldir, ana kimi, Vətən gözəldir namus kimi, Vətən müqəddəsdir alın təri kimi, Vətən vaz keçilən sadəcə ad deyil, o, səni yetişdirən, səni böyüdən, səni uyudan, səni öyrədən tək bir çərçivəyə sığmayan ölkə qədər böyük və insanları qədər müxtəlif və rəngarəngdir.

Vətən şəhidlərin ruhunda əbədiləşən, bütövləşən, yekunlaşan məfkurədir, inamdır, Vətən hər kəsin beynində yaradılan gerçək təsəvvürdür eyni insanın atası, anası kimi, hətta ən çox sevdiyi körpəsi kimidir. Vətənin şanını pul ilə, bazar parametrləri ilə ölçmək olmaz! Ona görə olmaz ki, bizim ömrümüz Vətənin ömründən milyon dəfələr qısadır. Vətən eşqidir yandırar cismi, o cism ki təmənnasızdır, hörmətli soydaşlar, yurddaşlar, Vətən insan düşüncəsində ən zirvədə dayanan ana dilimdir. Çünki, o öz varlığını bizə əsirgəməyir, can deyərək bizi köksündə bəsləyir və əbədi olaraq sahib çıxır.



Vətəni maddi tərbiyə səviyyəsində götürən şəxslər ancaq onu istifadə edirlər, ona xəyanət edirlər, ona yalan deyirlər, ona qarşı dururlar və ona hörmətsizlik edirlər.

Qafil ondan ki gün gələcək zaman ötəcək Vətən də o türlü övladlarına elə onlar kimi münasibət bəsləyəcək. Ancaq bilmək lazımdır ki yalnız və yalnız Vətən uğrunda ölən varsa Vətəndir.

Əsl Vətən tarixi yaddaşını həmişə iti və hazır saxlayır. Övladına sahib çıxır. Onun əzilməsinə, acımasına, imkan vermir, yolunda acı çəkənləri bütün tarix boyu xalqın şirin hafizəsində saxlayaraq daim onları sevdirir.

Vətən kürəsəlləşmənin ən müqəddəs nöqtəsidir, çünki bütün dünya xalqlarını sevmək yalnız və yalnız öz xalq və Vətənini sevməkdən başlayır. Vətən deyəndə insan beynində elmi duyumlara yol açan mənəvi zənginlik, mənəvi aləm bir-bir yaradılmağa başlayır. Vətən üçün hiss və rasional həmişə vəhdətdə olur. Demək olar ki vətəndaş bir cəmiyyətdə bunların birləşmə nöqtəsi Vətəndir və onlar burada bir-birlərini tamamlayır.

Vətən hər bir vətəndaş üçün duyğu, təsəvvür, anlayış və mühakimələrin törəniş və kəsişmə zəminidir, Vətən insan idrakını müxtəlif pillələrdə inkişaf etdirən və ona qiymət verən yeganə mənəvi və dünyəvi məkandır. Hər birimizin şəxsi həyatını oluşduran hadisələrin baş verdiyi, unudulmaz xatirələrin bir ucundan o biri ucuna uzanan faktor Vətəndir. Vətən insan həyatında heç vaxt təkrarlanmayan, bənzərsiz olaydır. Vətən oradır ki insan hər zaman içində ona ehtiyac duyur. Vətən anlayışların, bədii idrak və fəlsəfi təfəkkürün ana qaynağıdır. Vətən adi şüurun məhsulu deyil, Vətən yüksək amalın və uca idrakın və bizi formalaşdıran bütün biliklərin məhsuludur.

Vətən acı, şirin, solğun, üzüntülü, rəngarəng və başarılı həyatımızın qiymət verilən məkanıdır. Bu qiymət mühacir həyatında ola bilmir. Vətən yeganə məkandır ki insan özünü orada kölə yox onun əsl sahibi hiss edir. (Torpaq güclü olar). Vətən bütün bizlərin ən gözəl duyğu və düşüncələrinin ümumiləşdiyi bir sahə olmaqla ulu və müqəddəs məkanımızdır. O məkanımız ki biz özümüzü onun üçün ayarlayırıq, onun üçün yaşayırıq və onun üçün ölürük. Vətən fərdi həyatımızın içimizdə olan əksidir.

Eyni zamanda insan və təbiət (insan və Vətən) münasibətlərinin ən mükəmməl və dərin xarakterini özündə əks etdirən mahiyyətcə əvəzolunmaz, danılmaz mənəvi və dünyəvi faktlara dayanan bir məfhum var, o məfhum mütləq hər kəs üçün Vətəndir. Vətən tarixi keçmişimizin çağdaş əqli bilik səviyyəsində ana kitab kimi qoruyub saxlayan və təhlil edəndir.

Vətəni hər bir şəxs öz düşüncə və bilik müstəvisində sistemləşdirməlidir çünki fərdiyyətdən cəmiyyətə və bütün bunların tərəqqi və irəliləməsinin təməlidir. Vətən bizi formalaşdıran, boya-başa çatdıran, bəsləyən anadır. Baxmayaraq insanın mühitlə əlaqələri dəyişəndə bilir, ancaq daxilində olan Vətən sevgisi dəyişməz olaraq qalır. Vətən elə o müqəddəs sevgidir.

*"Xudafərin" jurnalının 2006-cı il, 25-26 sayından götürülmüşdür*

**Vətən adi şüurun məhsulu deyil, Vətən yüksək amalın və uca idrakın və bizi formalaşdıran bütün biliklərin məhsuludur.**



# Bioqumus

**Babək Tatlıyev**
*Müstəqil ekspert*

***Hələ Qədim Misir əkinçiləri yağış soxulcanlarına gələcək məhsul bolluğunun rəhni kimi baxırdılar. Aristotel isə onları torpağın bağırsaqları adlandırırdı. Bu həqiqətən də belədir: bitki qalıqları ilə qarışıq torpağı öz həzm sistemindən keçirən soxulcanlar onu zənginləşdirirlər. Lakin nə qədər qəribə olsa da, soxulcanların çox qiymətli, ekoloji cəhətdən təmiz gübrə istehsalçısı kimi xüsusi olaraq yetişdirilməsinə yalnız XX əsrin 50-ci illərindən başlanılmışdır.***



Planetin əhalisinin dönmədən artmasını nəzərə alaraq, insanlar durmadan istehsal gücləri-ni çoxaldır, kənd təsərrüfatı üçün yeni-yeni torpaq sahələrini zəbt edirlər. Bunun üçün isə meşələr məhv edilir, torpaqlar sənaye və məişət tullantılarilə, kimyəvi maddələrlə çirkləndirilirlər. Fermerlər də öz növbəsində, daha çox məhsul alaraq maksimum gəlir əldə etmək üçün kimyəvi zəhərlərdən bolluca istifadə edirlər. Bu cür zərərli maddələrin istifadəsi qaydaları və miqdarı müvafiq qanunlar və aidiyyəti qurumlar tərəfindən tənzimlənməyən ölkələrdə isə vəziyyət daha da acınacaqlı olur. Yaxşı, bəs azsaylı istehsalçıları çıxsaq (çünki onlar qazanc əldə edirlər), müasir kimyanın yaratdığı bu nisbi bolluğun yerdə qalan bəşər əhlinə və ətraf mühitə nə kimi töhfəsi vardır?

Düzünü desək yaxşı heç nə! Belə ki, bir tərəfdən təbiətə sağalmaz yaralar vurulur, torpaqlar və su hövzələri zəhərli maddələrlə çirkləndirilir, digər tərəfdən isə, konserogen və toksik maddələrlə zənginləşdirilmiş məhsullar orqanizmimizə daxil olaraq, sağlamlığımızı sözün həqiqi mənasında əlimizdən alırlar.

Onda təbii sual yaranır: həm istehsalçını, həm istehlakçını, həm də Qoca Təbiəti razı salacaq "qızıl orta"nı necə tapmalı, necə bol və eyni zamanda ekoloji cəhətdən təmiz məhsullar yetişdirməli? Bəri başdan deyək ki, bu mümkündür və belə metodlar dünyanın bir çox ölkələrində tətbiq olunur. Sözügedən mövzu müasir Azərbaycan üçün son dərəcədə aktual olduğundan, kənd təsərrüfatımızın inkişafına və əhalinin sağlamlığına yardımçı ola biləcək ən səmərəli üsullardan biri ilə sizi tanış edəcəyik.

Bir şeyi dönə-dönə təkrar etməkdən usanmıram: bütün çətinliklərimizdə Allah bizlərə yardımçı olur və sadəcə Onun töhvələrindən yararlanmağı bacarmalıyıq. Beləliklə, daha bir təbiət möcüzəsi - soxulcan.

Hələ Qədim Misir əkinçiləri yağış soxulcanlarına gələcək məhsul bolluğunun rəhni kimi baxırdılar. Aristotel isə onları torpağın bağırsaqları adlandırırdı. Bu həqiqətən də belədir: bitki qalıqları ilə qarışıq torpağı öz həzm sistemindən keçirən soxulcanlar onu zənginləşdirirlər.

Lakin nə qədər qəribə olsa da, soxulcanların çox qiymətli, ekoloji cəhətdən təmiz gübrə istehsalçısı kimi xüsusi olaraq yetişdirilməsinə yalnız XX əsrin 50-ci illərindən başlanılmışdır.







Bioqumus bakterisid xassəyə malik olub torpağı təmizləyir, radionuklidləri "düyünləyir", nitratların və ağır metalların bitkinin tərkibinə keçməsini əngəlləyir.



Və beləliklə, hazırda dünyanın bir çox ölkərində geniş istifadə olunan Qırmızı Kaliforniya Soxulcanı meydana gəlmişdir. Qırmızı Kaliforniya Soxulcanı – adi yağış soxulcanının (Eisenia foetida) yeni cinsidir. Bu soxulcan 1959-cu ildə Kaliforniya ştatının universitetində müxtəlif növ yağış soxulcanlarının hibridləşdirilməsi yolu ilə alınmışdır. Onun uzunluğu 10 sm, diametri 3-5 mm, çəkisi 1 qrama yaxındır. Lakin ən maraqlısı bu əhəmiyyətli canlının artım tempidir - bir cüt soxulcanın 1 il ərzində törəmələri 1500 ədədə cata bilir (!), 40 gün ərzində isə onun populyasiyası 2 dəfə çoxalır.

İndi isə gələk Qırmızı Kaliforniya Soxulcanının yuxarıda qeyd etdiyimiz məsələdə – bol və keyfiyyətli məhsul yetişdirilməsində olan önəminə. Belə ki, sutka ərzində öz çəkisindən 2 dəfə çox yeyən bu qarınqulu bütün növ orqanik tullantıları (mal-heyvan və quş peyinlərini, məişət tullantılarını) böyük həvəslə həzm-rabedən keçirərək bioqumus istehsal edir. Bioqumus isə çox qiymətli və ekoloji təmiz, bioloji cəhətdən aktiv orqanik gübrədir. Qərb ölkələrində bioqumusun köməyilə yetişdirilən məhsullar peyin və ya mineral gübrələrin vasitəsilə yetişdirilən məhsullardan əhəmiyyətli dərəcədə baha olurlar. Bu isə onların maya dəyərinin yüksək olması ilə deyil, ilk növbədə daha keyfiyyətli və ekoloji cəhətdən təmiz olmaları ilə bağlıdır.

Məlumdur ki, bol məhsul almaq üçün əkin sahəsi gübrələnməlidir. Bunun üçün, məsələn, 1 sot sahəyə 600-900 kq peyin verilməli olduğu halda, müvafiq olaraq 50-100 kq bioqumus kifayət edir, yəni 10 dəfə (!) az. Bundan əlavə, soxulcanlar orqanik maddələrlə yanaşı peyinin içərisində olan alaq otu və digər zərərli bitkilərin toxumlarını da həzmdən keçirirlər ki, bu da həmin bitkilərin sonradan sahədə cücərməsinin qarşısını alır. Həmçinin, mal peyinində bağırsaq çöplərinin mövcudluğu bəlli bir faktdır, lakin soxulcan həzm prosesində həmin patogen mikroorqanizmləri də məhv edir.

Bioqumusun adi orqanik gübrələrdən əhəmiyyətli fərqi - onun tərkibində ən zəruri maddələr olan azot, fosfor və kaliumun suda əriyə bilən formalarının, ən əsası isə biosferada çox mühüm rol oynayan qumin turşularının mövcudluğudur. Özü də, tərkibində olan ağac qırıntıları vasitəsilə peyin torpağın turşuluğunu artırdığı halda, əksinə 7,5 pH-a malik bioqumus torpaqda olan artıq turşuluğu neytrallaşdırır.

Qeyd olunanlarla yanaşı, bioqumus bakterisid xassəyə malik olub torpağı təmizləyir, radionuklidləri "düyünləyir", nitratların və ağır metalların bitkinin tərkibinə keçməsini əngəlləyir.

Bioqumus həmçinin çox yaxşı struktur formaya malikdir. Ona görə də, bioqumus tez bir zamanda ən ağır mexaniki tərkibə malik, sıx, gilli torpağın belə strukturunu yaxşılaşdırır və nəticədə bitkilərin kök sisteminin inkişafı üçün əlverişli hava-su rejimi yaranır.

Ənənəvi orqanik gübrələrlə müqayisədə bioqumus 5-10 dəfə daha effektivdir. O, qarğıdalı və digər dənli bitkilərin məhsuldarlığını 30-40 faiz, kartof və tərəvəzlərin məhsuldarlığını isə 70 faiz artırır.

Daha bir mühüm amil isə, bioqumusdan istifadənin məhsulun keyfiyyətini bilavasitə artırmasıdır. Belə ki, bu zaman taxılda olan zülalların, şəkər çuğunduru və kökdə olan şəkərin, kartofda olan nişastanın, meyvə və tərəvəzlərdə olan vitaminlərin miqdarı 15-45 faiz yüksəlir.

Əbəs deyil ki, Ərəb ölkələrinin "ölü" qumsallıqlarına 50 sm-ə qədər Avropadan gətirilmiş bioqumus verilməsi və süni suvarmadan istifadə edilməsi ildə üç və daha artıq dəfə ekoloji cəhətdən təmiz məhsul əldə etməyə imkan yaratmış, nəticədə bu ölkələr kənd təsərrüfatı məhsulları idxalçılarından ixracatçısına çevrilmişlər.

Bütün bunlarla yanaşı, soxulcanın biokütləsi tam bir kompleks bioloji cəhətdən dəyərli maddələrlə zəngin olduğundan, hər növ heyvan və balıqlar üçün yem kimi də istifadə olunur. Özü də, həmin biokütlənin əlavə olunması yemin dəyərliliyini 20-25 faiz artırır.

Yuxarıda qeyd etdiyimiz qısa məlumat nəticəsində biz, Uca Yaradanın mürəkkəb və heyrətamiz xassələrlə təchiz etdiyi kiçik və ilk baxışda sadə bir canlının müasir elmin nailiyyətlərinin belə verə bilməyəcəyi məhsulu istehsal etdiyinin şahidi olduq.

Lakin çox istərdik ki, Azərbaycan fermerləri də maariflənməyə, novatorluğa meyilli olub, bu mütərəqqi və ekoloji cəhətdən təmiz biotexnologiyalardan yetərincə bəhrələnsinlər. Necə deyərlər – bu həm canımıza xeyirdir, həm də cibimizə.



Bioqumusun adi orqanik gübrələrdən əhəmiyyətli fərqi – onun tərkibində ən zəruri maddələr olan azot, fosfor və kaliumun suda əriyə bilən formalarının, ən əsası isə biosferada çox mühüm rol oynayan qumin turşularının mövcudluğudur. Özü də, tərkibində olan ağac qırıntıları vasitəsilə peyin torpağın turşuluğunu artırdığı halda, əksinə 7,5 pH-a malik bioqumus torpaqda olan artıq turşuluğu neytrallaşdırır.







# Sağlamlığımız TƏHLÜKƏDƏDİR

## Siqaret və onun zərərləri

Elşad Abdullayev



Alimlər siqaret çəkməyin sağlamlığa zərəri haqda həmişə xəbərdarlıq edirlər. Hətta siqaret qutularının üzərinə yazılır "Səhiyyə Nazirliyi xəbərdarlıq edir: siqaret çəkmək sizin sağlamlığınız üçün təhlükəlidir". Buna baxmayaraq, bütün dünyada insanlar siqaret çəkməyə davam edir və Allah tərəfindən xeyirli əməllər üçün əmanət verilmiş bədənlərini zəhərləyirlər. Siqaret – insanları bir növ narkotik maddə bənzəri özünə aludə edir. Ümumdünya Səhiyyə təşkilatının hesablamalarına görə, hər il təxminən beş milyona yaxın adam siqaret çəkmək nəticəsində ölür. Bu rəqəm ildən-ilə artır. Təşkilat xəbərdarlıq edir ki, əgər problemin qarşısı alınmasa, 2020-ci ildə tütündən istifadə etmək nəticəsində 8 milyona yaxın adam həlak olacaq. Ağciyərdə xərçəng xəstəliyinin yaranmasına 87% siqaret çəkmək səbəb olur. Siqaret çəkmək habelə, ürək xəstəlikləri, iflic, ağız boşluğu, qida borusu, böyrək, dalaq və mədəaltı vəzdə xərçəng xəstəliyinin yaranmasına gətirib çıxarır. Ekspertlər söyləyirlər ki, siqaret çəkən adam özü ilə bərabər siqaret tüstüsü ilə nəfəs alan adamları da risk qarşısında qoyur.

İnsanlar siqaret çəkməyə başlayan kimi, onun mənfi təsirlərinə məruz qalır. Çoxsaylı faktlara əsasən deyə bilərik ki, yanan siqaret 4000-ə yaxın müxtəlif kimyəvi birləşmə (hansı ki, bunlardan 40-ı konserogendir) istehsal edən unikal bir "zavoda" bənzəyir. Bu "zavodun" məhsullarını iki qrupa ayırmaq olar: qaz halında olan maddələr və bu fazada asılqan şəklində olan bərk hissəciklər. Qaz fazanın komponentlərinə dəm qazı, hidrogen sianid, ammonyak, izopren, asetaldehid, akrolein, nitrobenzol, aseton, hidrogen sulfid və başqa maddələr daxildir. Bərk hissəciklərin əsas tərkib hissəsi isə nikotin və qurumdan ibarətdir. Qurumun tərkibinə politsiklik aromatik karbohidrogenlər, aromatik aminlər, piren, fenollar, naftollar və s. daxildir.








Siqaretin ən təhlükəli komponenti nikotindir. Çünki nikotin güclü zəhərdir və onun miqdarı siqaret tüstüsündə demək olar ki, üstünlük təşkil edir. İnsanlar siqaretin tərkibində olan nikotinə alışırlar. Nikotin alkoqol və kokain qədər güclü təsirə malikdir. Daimi istifadəsi insanlarda nikotizm yaradır. Əgər 100-120 mg nikotin hər hansı bir insanın damarına vurularsa bu insanın ölmə ehtimalı çox yüksək olar. Bu miqdar nikotin isə cəmi iki qutu siqaretin tərkibində olur. Düzdür, bu vaxta qədər iki qutu siqaret çəkərək ölən adam olmayıb. Bunun səbəbi odur ki, bir siqaretdə olan nikotinin 30%-i insanın nəfəs yollarına keçir, digər hissə isə siqaret filtri tərəfindən tutulur (cəmi 20%) və ya havaya yayılır (50%). Həmçinin bu miqdar nikotinin qəbulu tədricən baş verir və insan da onun təsirinə tədricən məruz qalır.

İnsan bədənində siqaretin təsirinə biganə qala bilən heç bir orqan, ya da hissə yoxdur. İlk olaraq siqaret tüstüsü ağız boşluğuna daxil olur. Daimi siqaret çəkən bir insanın ağız boşluğu xərçənginə tutulma riski çox böyükdür. Bundan başqa tüstü bəzi diş əti xəstəliklərinə, diş çürümələrinə və nəfəsin qoxmasına səbəb olur. Ağız boşluğundan keçən tüstü nəfəs yolları vasitəsi ilə ağciyərlərə daxil olur. Hidrogen sianidin bronxların divarlarına təsiri nəticəsində ilk olaraq xroniki öskürək yaranır. Ağciyərdə konserogen maddələrin miqdarının artması xərçəng xəstəliyinə səbəb olur. Həmçinin bu kanserogen maddələr qan vasitəsi ilə bütün orqanizm hüceyrələrinə yayılır və digər orqanlarda da (qida borusu, dalaq, böyrək, mədəaltı vəzi) xərçəng riski əmələ gətirir. Siqare-





# Təkcə ağciyərlərinə deyil, ailənin meyvəsi olan övladlarına da həyatı dram olaraq yaşadırsan!..

tin ürəyə verdiyi zərərlər isə bir sözlə məhvedicidir: nikotin qan təzyiqini yüksəldir, karbon monooksid (dəm qazı) qandakı oksigeni yox edir. Bu səbəbdən damarlarda xolesterol toplanır ki, bu da infakt təhlükəsini birə-beş artırır. Bununla yanaşı bədəndəki qan dövranı zəiflədiyindən qanqren təhlükəsi də artmış olur. Yaranan yüksək təzyiq böyrəklərə də ciddi ziyan vurur. Həmçinin nikotin mərkəzi sinir sistemi hüceyrələrinə məhvedici təsir göstərir.

Siqaret çəkənlərin çoxu onun təsirlərindən xəbərdardır. Lakin siqareti atmaq onlar üçün bir xəyal kimi görünür. Bəzi adamlar siqareti tam ata bilmir və gündə bir neçə siqaret çəkirlər. Digərləri tərkibində nikotinin az olduğu, ya da mentol, nanəli siqaret çəkirlər. Lakin sərinləşdirici təsirə malik olduğu üçün hər bir insan tüstünü ağzında və ağciyərlərində daha çox saxlayır. Bu isə nanəli və ya mentollu siqaretin təsirini adi siqaret səviyyəsinə qaldırır.

Siqareti atan kimi xərçəng xəstəliyinin yaranma ehtimalı aşağı düşür. Sonuncu siqaretdən 20 dəqiqə sonar qan təzyiqi normal səviyyəyə çatır. Bir gündən sonra infakt keçirmə şansı azalır, bir ildən sonra isə ürək xəstəliklərinin inkişaf etməsi riski siqaret çəkən adamla müqayisədə yarıya enir. Siqaret çəkməyi dayandırmaq üçün müxtəlif yollar vardır. Burada bəzən eyni zamanda bir neçə vasitədən istifadə edirlər. Lakin bunlardan ən önəmlisi siqareti atmağa psixioloji cəhətlən hazır olmaqdır. Ekspertlər insanların siqareti atdıqda özlərini narahat hiss etdiklərini, bəzən stres keçirdiklərini söyləyirlər. Bəzi adamlarda bu, baş ağrıları və mədədə ağrılarla müşayiət olunur. Ancaq birdəfəlik siqareti atmaq fikrindəsinizsə ümidinizi itirməyin. Özünü təlqinlə məşğul olun, çalışın gələcək həyatınızın daha xoşbəxt olacağını düşünəsiniz. Nikotinin bir daha həyatınıza hakim olmayacağına özünüzə söz verin. Sağlam həyat keçirməyə çalışın. Bir də gördünüz, bir gün gələcək və siz siqareti tamamilə atmış olacaqsınız. Yəqin ki, bunlara ümidsiz yanaşanlar da var. Amma hər halda, sonda onu demək olar ki, alışqanı növbəti siqaretə yaxınlaşdırdıqda yaxşı fikirləşin, sağlam olmaq istəyirsinizmi?

**İnsanlar siqaret çəkməyə başlayan kimi, onun mənfi təsirlərinə məruz qalır. Çoxsaylı faktlara əsasən deyə bilərik ki, yanan siqaret 4000-ə yaxın müxtəlif kimyəvi birləşmə (hansı ki, bunlardan 40-ı konserogendir) istehsal edən unikal bir "zavoda" bənzəyir.**






***Bu dünyamda saflıq, səmimiyyət, şəfqət hər şeydən öncə gəlir.***
***Burada hər kəs sevginin dili ilə danışır və sevgi ilə qulaq asır.***
***İnanın, bu bir xəyal dünyası deyil.***
***Nə olar dünyama müsafir olanlar bu sevgi aləminə tufanları, fəlakətləri gətirməsin.***



# Üzeyir Hacıbəyov

## Publisist yazılarda söylənən fikirlər...

*Təqdim etdi* ***Elmira Qasımova***
*Azərbaycan İncəsənət muzeyinin direktor müavini*

**Vətən mənafeyini paraya satan, əhalimizi üsrətə düçar edən və bu yol ilə məmləkətimizdə müşkülat törədən ehtikarçılara dövlət xaini deyə hökm vermək caizdir".**

1918-ci il 28 may.

"Bu gün o gündür ki, Azərbaycan türklərinin Milli Məclisi, milli şurası açılıb Azərbaycan təkmil bir hökumət şəklinə girir".

* * *

"İstiqlalımıza inanmayan, gələcəyimizə ümidvar olmayan adamlar hökumətimizin içində olmamalıdır".

* * *

"Xudavəndi aləm hər yerdə istibdad varsa, evini yıxsın, necəki rus istibdadının evini yıxdı. Qoyurdularmı ki, vaxtında dilimizi öyrənək ki, yeri düşəndə danışarkən fikrimizi söyləməyə, söz axtarmağa möhtac qalmayaq".

* * *

"Təəccüblü işdir. Rus milli komitəsi bir tərəfdən bizi və bizim hökumətimizi tanımağı əsla qəbul etməyir, bir tərəfdən də bu tanımadığı və qəbul etmədiyi hökumətə müraciət edib əlaqə bağlayır və dürlü-dürlü iltimaslarda bulunur.

Bu nədir? İkiüzlülükdür, yoxsa bizi saf dərun hesab edib ələ salmaqdır.

* * *

Aşkar deyilmi ki, rus milli komitəsinin amal və arzusu... bizləri təkrar Rusiyaya birləşdirib istiqlalımızın məhvinə səbəb ola və əlli min nəfər rusu şimali Qafqaz hüdudundan qaytarıb da torpağımızda yerləşdirməkdən məqsəd yenə də politika yeritməkdir. Rus milli komitəsi Azərbaycanımıza "Rusiyanın bir parçası" nəzərilə baxır".

* * *

"Düşmənin özü bir o qədər qorxulu deyildir. Qorxulu şey düşmənin kim olduğunu və nerəmizə zərbə endirəcəyimizi bilməməzlikdir.

Bu günkü düşmənimiz üçdür. Ermənilərin daşnaksaqan partiyası, rusların "Vahid Rusiya" tərəfdarları və bir də bunların "sosialist" namını daşıyan müxtəlif firqələrdir".

* * *

"Ehtiyat lazımdır. Təbii bir əmrdir: İstiqbalımızı, azadlığımızı istəməyənlərə biz etibar və etimad gözü ilə baxa bilmərik".

* * *

"Ararat hökuməti ingilislərin köməyi ilə nahaq məramlarına nail oldular, amma Azərbaycan hökuməti yenə eyni ingilislərin köməyilə öz haqqını hələlik yeridə bilmədi. Təqribən bir ay bundan əvvəl idi ki, Qarabağdan gələn ahu-fəryadlar həm hökumətimizdən, həm də cəmiyyətimizdən Azərbaycan torpağının bu hissəsinə xüsusi bir nəzər yetirilməsini tələb edirdi.

Nə olmuşdur orada?

Ermənilərin generalı ədd olunan Andranik öz xunxar dəstəsilə Qarabağın Zəngəzur (Azərbaycanın qədim mahalı: Mehri, Gorus, Qafan, Sisiyan, Qubadlı, Laçın və Kəlbəcər rayonlarını əhatə edirdi) adlanan uyezdin üzərinə tökülüb müsəlman əhalisini qətlü-qarət kimi quldurlara məxsus əməlləri ilə tədhiş edib buraları "müsəlmanlardan təmizləmək" istəyirdi".

* * *

"Daşnaqlar Qarabağ ermənilərini bizə qarşı müsəlləh üsyana təşviq və təhrik edirlər. Və deyirlər ki, qorxmayın siz, üsyan başladıqdan sonra erməni hökuməti bəhanə tapıb sizə köməyə gələr.

Bu üsyanın müsəlləh olacağına da qəzetə əmindir, çünki Qarabağ ermənilərinin daşnaqlar tərəfindən mükəmməl surətdə silahlanmalarını gözəlcə bilirlər.

Bəli, bunu biz də yaxşıca bilirik ki, madam ki, erməni millətі içində daşnak partiyası mövcuddur, nəinki Qarabağda, bəlkə Ümümqafqazda müsəlləh iğtişaşlar davam edəcəkdir. Millətinin gözlərini, daşnaqların siyasətini görməmək dərəcədə örtmüş olan bu partiya, erməni millətini tamam və kamal məhv və nabud etdirməyincə şeytan ətindən əl çəkməyəcəkdir.

Bu üsyanın açıq-açığına qəzet vasitəsilə elanı daşnakların bihəyalığını sübut edən aşkar dəlillərdən birisidir. Gözlərimizi dörd açmalıyıq. Ermənilərə etibar yoxdur".

* * *

"Mart hadisatında bizi, yəni müsəlman burjuyundan tutmuş müsəlman fəqirləri, kasibəsini və baxüsus müsəlman əlsiz-ayaqsızlarını erməni daşnaq soldatlarının süngü, güllə və xəncərlərlə arvad və uşağına kimi qırdıran bolşeviklərə biz nə tövr etibar edə bilərik".

* * *

"Azərbaycanda heç bir şeyin bahalığı çörək bahalığı kimi fəna nəticə verməz. Çünki, camaatımız, baxüsus kənd əhli və füqarəyi-kasibə sinfi məhz çörək ilə dolanmağa adət etmişdir.

İştə pullanmaq hirs və təmər sayğısilə vətənimizin öz əhalisi üçün madəri-məişət olan taxılını müxtəlif hiylələrlə yığıb vətəndən dışarı çıxarıb özgələrə satıb mənfəət görürlər. Vətən mənafeyini paraya satan, əhalimizi üsrətə düçar edən və bu yol ilə məmləkətimizdə müşkülat törədən ehtikarçılara dövlət xaini deyə hökm vermək caizdir".

* * *

"**Sual:** – Dünyada hamıdan az dərd çəkən adamlar kimdir?

**Cavab:** – Zəngəzur acları, çünki onların hər biri bir manatın qeydinə qalıb bir dərd çəkirlər. Amma, məsələn: Bakı milyonerləri milyon manatın qeydinə qalıb milyon dərd çəkirlər".

Birisi bir kora dedi:

– Allah təala bir adamı kor eləyəndə əvəzində ona təsəlli üçün bir yaxşı qabiliyyət əta eləyir, sənə nə qabiliyyət əta eyləyibdir.

Kor dedi:

O gözəl qabiliyyəti əta eyləyibdir ki, nə yalançı millətpərəstlərin və fokuslar sosialistlərin üzünü görürəm, nə də qiyamətə kimi görəcəyəm. Vəssalam!".

"**Sual:** – Nədən ötrü müsəlmanlar bir bu qədər cəmiyyətlər düzəldirlər?

**Cavab:** – Ondan ötrü ki, axırda "cəmiyyətin" adamları bir-biri ilə savaşsınlar.

**Sual:** – Yaxşı, məgər ayrı yerdə "cəmiyyətsiz" savaşmaq olmazmı?

**Cavab:** – Olar, ancaq "cəmiyyət" içində savaşanların hər biri "haqq, haqqa niyyət" və "millət" adına savaşıb, öz şəxsi düşmənçiliklərini pərdələməyə yol tapırlar".

# Gülüstan poeması

Bəxtiyar Vahabzadə
Xalq şairi





İpək yaylığıyla o, asta-asta
Silib eynəyini gözünə taxdı.
Əyilib yavaşca masanın üstə
Bir möhürə baxdı, bir qola baxdı.

Kağıza həvəslə o da qol atdı,
Dodağı altından gülümsəyərək.
Bir qələm əsrlik hicran yaratdı,
Bir xalqı yarıya böldü qılınc tək.

Öz sivri ucuyla bu lələk qələm
Dəldi sinəsini Azərbaycanın.
Başını qaldırdı,
Ancaq dəmbədəm
Kəsdilər səsini Azərbaycanın.

O güldü kağıza qol çəkən zaman,
Qıydı ürəklərin hicran səsinə.
O güldü haqq üçün daim çarpışan
Bir xalqın tarixi faciəsinə.

Əyləşib kənarda topsaqqal ağa,
Hərdən mütərcimə suallar verir.
Çevrilir gah sola, baxır gah sağa,
Başını yellədib təsbeh çevirir.

Qoyulan şərtlərə razıyıq deyə,
Tərəflər qol çəkdi müahidəyə...
Tərəflər kim idi? Hər ikisi yad!
Yadlarmı edəcək bu xalqa imdad?!

Qoy qalxsın ayağa ruhu Tomrisin,
Babəkin qılıncı parlasın yenə.
Onlar bu şərtlərə sözünü desin,
Zənciri kim vurdu şir biləyinə?

Hanı bu ellərin mərd oğulları?
Açın bərələri, açın yolları.
Bəs hanı bu əsrin öz Koroğlusu –
Qılınc Koroğlusu, söz Koroğlusu?

Babaların şəni, şərəfi, əlbət,
Bizə əmanətdir, böyük əmanət...
Yoxmu qanımızda xalqın qeyrəti?
Belə saxlayarlar bəs əmanəti?

Qoy ildırım çaxsın, titrəsin cahan!
Ürəklər qəzəbdən coşsun, partlasın.
Daim haqq yolunda qılınc qaldıran
İgid babaların goru çatlasın.

Qoy əysin başını vüqarlı dağlar,
Matəmi başlandı böyük bir elin.
Mərsiyə söyləsin axar bulaqlar,
Ağılar çağırsın bu gün qız, gəlin!..

Tərəflər sakitdir, qəzəbli deyil,
Məhv olan qoy olsun, onlara nə var.
İmzalar atılır bir-bir, elə bil,
Sevgi məktubuna qol çəkir onlar.



Atıb imzasını hər kəs varağa,
Əyləşir sakitcə keçib yerinə.
Eynəkli cənabla, təsbehli ağa,
Qalxıb əl də verir biri-birinə.

Onların birləşən bu əllərilə
Ayrılır ikiyə bir el, bir Vətən.
Axıdıb gözündən yaş gilə-gilə,
Bu dəhşətli hala nə deyir Vətən?

Bir deyən olmadı, durun ağalar!
Axı, bu ölkənin öz sahibi var.
Siz nə yazırsınız bayaqdan bəri, -
Bəs hanı bu yurdun öz sahibləri?

Bəs hanı həqiqət, bəs hanı qanun?
Qocadır bu yurdun tarixi, yaşı.
Bəs hanı köksünə sərhəd qoyduğun,
Bir vahid ölkənin iki qardaşı?

Görək bu hicrana, bu müsibətə,
Onların sözü nə, qərəzi nədir?
Bu xalq əzəl gündən düşüb zillətə,
Öz doğma yurdunda yoxsa kölədir?

Necə ayırdınız dırnağı ətdən -
Ürəyi bədəndən, canı cəsəddən?
Axı, kim bu haqqı vermişdir Sizə,
Sizi kim çağırmış Vətənimizə?

Neçə vaxt səngərdə hey ulaşdılar,
Gülüstan kəndində sövdələşdilər.
Bir ölkə ikiyə
Ayrılsın deyə!..

Göy də guruldamış deyirlər o gün,
Çölləri, düzləri buludlar sarmış.
O göy gurultusu ulu Babəkin Ruhuymuş,
hönkürüb fəryad qoparmış.

Gülüstan kəndinin gül-çiçəkləri
Bir günün içində soldu-saraldı.
"Gülüstan" bağlandı, o gündən bəri,
Bu kəndin alnında bir ləkə qaldı.

Bağrı köz-köz oldu "Yanıq Kərəmin"
Tellər inildədi, yandı, nə yandı.
Aşığın sazında daha bir həzin,
Daha bir yanıqlı pərdə yarandı.

Həmin gün ölkəni apardı sel, su,
Tutuldu çöhrəsi günün, ayın da.
Qoca Nəbatinin eşqi, arzusu,
O gün batmadımı Arpa çayında?

Ağlayıb dağlardan əsən küləklər,
Bu məşum xəbəri aləmə yaydı.
Sanki dilə gəldi güllər, çiçəklər:
"Bu işə qol qoyan qollar sınaydı".

Arazın suları qəzəbli, daşqın,
Şirin nəğmələri ahdır, haraydır.
Vətən quşa bənzər, qanadlarının
Biri bu taydırsa, biri o taydır.

Quş iki qanadla uçar, yüksələr,
Mən necə yüksəlim tək qanadımla?
Ürəklər bu dərddən tüğyana gələr,
Axar gözümüzdən yaş damla-damla.

Cənablar, bir anlıq düşündünüzmü?
Verdiyiniz hökmün ağırlığını?
Bu hökmün dəhşəti əllimi, yüzmü?
Biz necə götürək bu göz dağını?..

Başı kəsiləndə bu məğrur elin
Qəlbin ağrısını hiss etdinizmi? -
Qoca Füzulinin, igid Babəkin
Etiraz səsini eşitdinizmi?
Cənablar, bir damcı mürəkkəblə siz
Düşünün, nələrə qol çəkmişsiniz?

Bir damcı mürəkkəb, bir vətəndaşı
Qanına bulayıb ikiyə böldü.
Bir damcı mürəkkəb olub göz yaşı
İllərlə gözlərdən axdı, töküldü.

Min ləkə vurdular şərəfimizə
Verdik, sahibimiz yenə "ver" - dedi.
Lap yaxşı eləyib doğrudan, bizə
Biri "baran" - dedi, biri "xər" - dedi.
Bizi həm yedilər, həm də mindilər,
Amma dalımızca gileyləndilər.

Hökmü gör nə qədər böyükmüş anın
Möhür də basdılar varağa təkrar.
Yox, varağın deyil, Azərbaycanın
Köksünə dağ boyda dağ basdı onlar.



İmzalı, möhürlü ey cansız varaq,
Nə qədər böyükmüş qüvvətin, gücün.
Əsrlər boyunca vuruşduq, ancaq
Sarsıda bilmədik hökmünü bir gün.

Ey kağız parçası, əvvəl heç ikən,
Yazılıb, qollanıb yoxdan var oldun.
Böyük bir millətin başını kəsən,
Qolunu bağlayan hökmdar oldun.

Bir eli ikiyə paraladın sən
Özün kağız ikən paralanmadın.
Köksünə yazılan qəlb atəşindən,
Niyə alışmadın, niyə yanmadın?

Araz sərhəd oldu, əsdi küləklər,
Sular yatağında qalxdı, köpürdü.
Üstü dama-dama taxta dirəklər,
Çayın kənarında səf çəkib durdu.

Sular, sizdən təmiz nə var dünyada?
Ləkədən xalidir axı qəlbiniz.
Bağrınız alışıb niyə yanmadı
Bu çirkin əmələ qol qoyanda siz?

Ey Araz, səpirsən göz yaşı sən də,
Keçdikcə üstündən çölün, çəmənin.
Səni arzulara sədd eyləyəndə,
Niyə qurumadı suların sənin?

Dayanıb Arazın bu tayında mən
"Can qardaş" deyirəm, o da "can" deyir.
Ey zaman, sorğuma cavab ver, nədən
Səsim yetən yerə, əlim yetməyir?..

Qarışıb gözümdə, qarışıb aləm
Dərd-dərdi doğrayır, qəm-qəmdən keçir.
Arazın üstündən keçə bilmirəm,
Araz dərdim olub sinəmdən keçir.

Taxta dirəkləri torpağa deyil,
Qoydular Füzuli divanı üstə.
Yarıya böləndü yüz, yüz əlli il
Gəraylı, bayatı, muğam, şikəstə.

Dəmir çəpərləri eşqim, diləyim,
Tarixim, ənənəm üstə qoydular.
Yarıya böləndü canım, ürəyim,
Yarıya böləndü Arazda sular.

Taxta dirəkləri qoydular ax, ax!
Qəlbimin, ruhumun, dilimin üstə.
Biz güldük, ağladıq, yenə də ancaq
Bir sazın, bir telin, bir simin üstə.

Ürəkdən ürəyə körpü? Bir dayan!
Dərdimiz dinirsə, bir sazın üstə
Şəhriyar yaralı misralarından
Körpü salmadımı Arazın üstə?!

Bu taydan o taya axışdı sel tək
Gözə görünməyən könül telləri.
Bu selin önünü nə çay, nə dirək
Kəsə bilməmişdir yüz ildən bəri.

Ağalar bilmədi birdir bu torpaq
Təbriz də, Bakı da Azərbaycandır.
Bir elin ruhunu, dilini ancaq
Kağızlar üstündə bölmək asandır.

Böl, kağız üstündə, böl, gecə-gündüz,
Torpağın üstünə dirəklər də düz,
Gücünü, əzmini tök də meydana,
Qoşundan, silahdan sədd çək hər yana.
Torpağı ikiyə bölərsən, ancaq
Çətindir bədəni candan ayırmaq!

Ayırmaq kimsəyə gəlməsin asan
Bir xalqın bir olan dərdi-sərini.
O taydan bu taya Mustafa Payan
Oxuyur Vahidin qəzəllərini.

Dolandı zəmanə, döndü qərinə,
Şairlər od tökdü yenə dilindən.
Vurğunun o həsrət nəğmələrinə
Şəhriyar səs verdi Təbriz elindən:

"Heydər baba, göylər qara dumandı,
Günlərimiz bir-birindən yamandı.
Bir-birindən ayrılmayın, amandır,
Yaxşılığı əlimizdən aldılar,
Yaxşı bizi yaman günə saldılar.

Bir uçaydım bu çırpınan yelinən,
Qovuşaydım dağdan aşan selinən,
Ağlaşaydım uzaq düşən elinən.
Bir görəydim ayrılığı kim saldı,
Ölkəmizdə kim qırıldı, kim qaldı".

# KƏLBƏCƏR alınmaz qala idi...

**_Tofiq Hacıyev_**



Xudavənd kompleksində Arzu Xatun məbədi, 1204-cü il

Ən qədim insan məskənlərindən biri olan Kəlbəcər açıq səma altında muzeydir. Bu qədim oğuz eli əvvəlcə Alban dövlətinin, sonra ərəb xilafətinin, VIII-IX əsrlərdə Sacilər, X əsrdə Salarilər, XI-XII əsrlərdə Şəddadilər, XII-XIII əsrlərdə Atabəy-Eldəgizlər, XIII əsrin II yarısından XIV əsrədək Hülakülər, XV əsrdə Qaraqoyunlu və Ağqoyunlu dövlətinin tərkibində olmuşdu. Nadir Şahın ölümündən sonra (1747) Azərbaycan xanlıqlara parçalanan zaman Kəlbəcər Qarabağ xanlığının tərkibində olmuşdur. Zaman-zaman xalqımızın üzərinə yadellilərin hücumları zamanı qəhrəman Kəlbəcər eli düşmənlərə layiqli cavablar vermişdi.

1905-1906-cı və 1918-ci illərdə separatçı erməni birləşmələri Azərbaycan xalqına qarşı soyqırım törədən zaman Kəlbəcərlilər erməni daşnaqlarına qarşı qəhrəmancasına mübarizə aparmışdılar. Həmin illərdə Qərbi Azərbaycanda yaşayan soydaşlarımız Kəlbəcər elinə pənah gətirmişdilər. Əsrlərin sınaqlarına sinə gərmiş bu qədim oğuz eli digər yurd yerlərimiz kimi xəyanətin qurbanı oldu.

Hələ 1992-ci ilin fevralından başlayaraq Yuxarı Ayrım kəndindən Göyçəyə tərəf 14 metr enində yol çəkilməyə başlandı. Həmin yolun çəkilişində iştirak edənlər çalışırdılar ki, bu yolu tez bir zamanda çəkib başa çatdırsınlar. Onlara demişdilər ki, Ermənistana bu yolla hücum ediləcək. Bəli gözlənilən hücum oldu. Amma əksinə, ermənilər tərəfindən Kəlbəcər rayonu Azərbaycanın alınmaz qalası sayılırdı. Bu həqiqətən də belə idi. Kəlbəcər rayonuna giriş cəmi 4 yerdən idi. Birincisi Laçın rayonu ərazisindən, ikincisi qızıl mədəni olan səmtdən, üçüncüsü Ağdərədən, dördüncü isə Ağdaban yolu istiqamətindən. Bu yolların hər birini qorumaq üçün çox az sayda hərbi qüvvədən düzgün istifadə edilsəydi, düşmən Kəlbəcər torpağına ayaq basa bilməzdi. Kəlbəcər ərazisinə giriş, ən vacibi Kəlbəcərin "Nicat" yolu olan Murov dağdan keçən yolun qorunması daha çox vacib olan Ağdaban kəndi idi. Bu yol lazımınca qorundumu?

1992-ci il Xocalının işğalından dərs almayan, o zaman Kəlbəcərə və yeni formalaşan orduya rəhbərlik edənlər Ağdabanı necə qorudular?

1992-ci ilin aprel ayının 6-7-də göstəriş verilib ki, Ağdaban kəndi ilə ermənilər yaşayan Çapar kəndi arasında tank əleyhinə qoyulmuş minalar təmizlənsin. Guya həmin yolla Çapar kəndinə hücum olacaqmış. Minalar təmizlənir, kənddə çox az olan hərbiçilər də kənddən çıxarılır. Böyük əraziyə malik olan Ağdaban kəndi, 10-12 nəfər könüllülərin ümidinə qalır. Aprelin 7-sindən 8-nə keçən gecə Ağdabanın müdafiəsində 4 nəfər dayanır. Onlardan biri Yaşar Məmmədov təsadüf nəticəsində sağ qalıb.

Yaşar müəllimin dediklərindən:

– Biz gecəni növbədə durduq. Səhər saat 6:00 olardı, hava işıqlaşırdı. Yoldaşlardan biri dedi ki, o ağacın başındakı quşu kim bir gülləyə vura bilər. Yoldaşlardan biri avtomatı götürüb, mən vuraram dedi və nişan alıb bir güllə atdı. Elə bu zaman kənd hərtərəfdən güllə-boran edildi. Biz çaş-baş qaldıq. Bu vaxt bizi də hər tərəfdən gülləyə tutdular. Mən öz kəndimizə tərəf çəkilə bilməyəcəyimi duydum. Və ermənilər yaşayan kəndə tərəf yumbalanaraq dərəyə düşdüm. Suyun içi ilə sürünə-sürünə çapar kəndinə doğru getdim. Və meşəyə girə bildim. Yoldaşlarımın üçünü də yerindəcə vurdular. Sən demə ermənilər çox böyük qüvvə ilə kəndi hərtərəfdən mühasirəyə alıblarmış. Məqsədləri də kənddən heç kimi sağ burax-



Qala qalıqları



mamaq imiş. Hücuma başlamaq üçün bir avtomat gülləsi atılmalıymış. Ermənilər hələ lazımı mövqelərini tutmamış bizim quşa atdığımız bir güllə onları vaxtsız atəş açmağa vadar edir. Kənd hərtərəfdən güllə yağışına tutulur. Kənddə olan qalan silahlılar kəndin müdafiəsinə qalxırlar. Hidayət (ona Saşa deyirdilər) çapardan gələn yolun ətrafında, Məmməd isə (Mamay təxəllüslü) Aşıq Şəmşirin qəbri yaxınlığında mövqe tutur. Vaxtında tərpənənlər çətin yollarla kəndi tərk etməyə, uşaqları götürüb çıxmağa çalışırlar. Sən demə ermənilər meşə yolu gələrək Ağdabandan Kəlbəcər istiqamətinə gedən maşın yolunu da nəzarətə alıblar. Kəndə hücum edildiyi barədə rayona zəng vurub xəbər veriblər. Aşıq Şəmşirin oğlu Ələsgər də (allah ona rəhmət eləsin) o zaman könüllü orduya yazılmışdı. O, doqquz nəfər hərbiçi ilə kəndə köməyə gəlirmiş. "Qara xırlıq" deyilən yerə çatanda pusquda dayanan ermənilər maşını qumbara atanla vururlar. Maşının üstündə olan 9 nəfərin hamısı həlak olur. Təsadüfən Ələsgər və sürücü sağ qalır. Onlar da daşların arxasına keçib özlərini qoruya bilirlər. Elə bu vaxt kənd camaatının həmin yerə çatmasına 600-700 metr qalıbmış. Qarşıda atışma olduğunu eşidən dinc əhali meşə yolu istiqamətini başqa səmtə dəyişir. 9 nəfərin ölümü bütöv Ağdaban camaatının sağ qalmasına səbəb olub. Kənddə döyüşən Hidayət və Məhəmməd isə əhali kənddən çıxana qədər döyüşmüş, sonra qəhrəmancasına həlak olmuşlar. Ermənilərin kəndə hücumunu bilməyən qocalar, qarılar, xəstələr və körpə uşaqlar öldürülmüş, bir çoxları evlərinin içində, ot tayalarının arasında od vurulub yandırılmışdı. Kəndin təqaüdçü müəllimi Sovet müəllimin də ailə üzvləri ermənilərin hücumundan xəbər tutmamışdılar. Evləri kəndin kənarında olduğundan düşmən qapını tez keçmişdi. Həyat yoldaşı Qəmər içəri girən erməninin başına odunu çırpdıqda, erməni avtomatla onu düz sinəsindən vurmuşdu. Sovet müəllimin oğlu Əbülfət qaçmaq istəyəndə onu arxadan güllələmişdilər. Sovet müəllimi, qonşuluqda yaşayan bir qadını və 3 azyaşlı uşağı girov götürmüşdülər. Şuşanın işğalından bir neçə saat əvvəl onlar dəyişdirilərək Ağdama gətirilmişdi.

İki saat sonra bizimkilər talan edilərək yandırılmış Ağdaban kəndini yenidən ələ keçirsələr də 1993-cü ilin aprelin ilk günlərində yenidən kəndə hücumlar başlanmışdı. Beləliklə istər Ağdaban, istərsə də bütövlükdə Kəlbəcər heç bir müqavimət göstərilmədən düşmənə təhvil verilmişdi. Kəlbəcərin sahibsiz olaraq boşalmasından bir həftə sonra gələnlər hələ Kəlbəcərə ermənilərin girmədiyini söyləyirdilər.

Daxili çəkişmələrin və xəyanətin qurbanı olan Kəlbəcər beş gün ərzində boşaldılaraq düşmənə təhvil verildi. İşğal nəticəsində 220 nəfər mülki vətəndaş həlak oldu. 321 nəfər itkin düşdü. Rayonun 130 yaşayış məntəqəsi, o cümlədən dünya əhəmiyyətli "İstisu" sanatoriyası, 500-dən çox sənaye, tikinti, kolxoz, sovxoz, ticarət, ictimai iaşə və s. xidmət obyektləri, 13 min yaşayış evi, 324 sosial-mədəni obyekt darmadağın edildi. Kəlbəcərlilərin minbir əzab-əziyyətlə topladıqları var-dövlət Ermənistana daşındı.

Bu gün təbiətin açıq muzeyi olan, təbii sərvətləri – dərman bitkiləri (1kv/m ərazidə 75 müxtəlif növ ot bitkiləri olan yerlər olub Kəlbəcərdə), meşə sərvətləri, daş xəzinələri, qiymətli minerallar düşmən əlindədir. Xarici dövlətlərin şirkətləri sərvətlərimizi talan edirlər. 61 min Kəlbəcər əhalisi respublikanın 55 yaşayış rayonunda məskunlaşıb. Onların hər biri doğma od-ocağa qayıtmaq arzusu ilə yaşayırlar. Düşmənə vurulacaq son zərbəni gözləyirlər. İşğal olunmuş qədim Oğuz elinin torpaqlarını azad etmək üçün Oğuz igidləri Ali Baş Komandanın, hörmətli prezidentimiz zati-aliləri cənab İlham Əliyevin əmrini gözləyirlər.

Böyük Yaradan bu işdə xalqımıza kömək olsun. Amin!..

**Dərdinə daşların, qayaların, meşələrin, güllərin, bülbüllərin ağladığını görən buludlar da göz yaşlarını tuta bilmir. Sən ölü deyilsən ki, sənə ağlasınlar, yas tutsunlar, sən şəhidlərinlə dirisən, qazilərinlə hünərlisən, millətinlə varsan, QARABAĞ!**

# Müəllim

**Ağa Hacıbəyli**

Ən şərəfli peşə ən müqəddəs vəzifədir müəllimlik. Xalqa millətə insanlığa qədər proqramını, tale yazısını anladandır. O böyük əxlaq təmsilçisi, əbədilik şüurunun təlimçisidir. Onun təsiri atanın ananın övlad üzərindəki təsirindən daha çoxdur. Valideyn övladı fani dünyaya gətirir müəllim onu baqi aləmə irşad edir. Atanı, ananı, cəmiyyəti yetişdirən odur. Onun əlləri sehrli, baxışları və təbəssümü mənalıdır. O əllərdə məsum körpələr həyat, şagirdlər dünya, tələbələr isə kainat kitabını öyrənirlər. Bu gün bilinən hər şeyin mənbəyi odur. Teleskopdan mikroskopa qədər tədqiq olunan, təhqiq edilən hər nə varsa təməlində müəllim dayanır.

Müəllim təlim, müdərris isə tədris edər. Peşəkar pedaqoq tədris sahəsini dərindən anladar. Dinləyicisinin ağlı təfəkkürü və beyni ilə işlər. Müəllim isə dinləyicisinin mənəvi dünyasının fatehinə çevrilərək onun nəfsinin təmizliyini, əxlaqının inkişafını təmin edər. Sonra islah olunmuş qəlb həyatını təsəvvür dünyası, idrak şüuru və beyniylə birləşdirər. Beləliklə başdakı gözlə qəlbdəki göz, ağızdakı dillə qəlbin dili bütünləşər. Dil qəlbin tərcümanına, göz də könlün pəncərəsinə çevrilər. Hər söz vicdan tərəzisində çəkilərək söylənilər və gözlər qəlbin bax dediyi yerdən baxar. İnsan onun vasitəsi ilə kainatda bütövləşir və bu aləmlər içərisində vəhdət qanunu dərk edir. Məktəb həyat laboratoriyası və müqəddəs bir məbəddir. Müəllim isə bu irfan müəssisəsində maarif, fəzilət, sevgi qapılarını insanlıq üzərinə açandır.

Müəllim, hüzurunda əyləşənin könül zəmisini icarəyə alan, ora həqiqət toxumunu, haqq sevdasını, millət və vətən sevgisinin toxumlarını əkən zatdır. O, insanın bəsirət gözlərini Ərşi-Əlaya yönəldən böyük mürşid və nəhəng ustaddır.

Hər an tələbənin qəlbini fəth edən, elmiylə ora nazil olan, ruhunun dərinliklərində silinməz izlər buraxan dərdini öz dərdi hesab edən fədayidir. Anadan sonra yer üzünün ilk fədayisi müəllimdir. İnsan məxluq, elm isə Allahın mülküdür. Allah elm mülkünü bəndəsinə müəllimlə verir. O da bu əmanəti öz ünvanına çatdırmaqla vəzifələnibdir. Ən böyük müəllim Hz. Muhəmməd (sallallahu əleyhi və alihi səlləm)dir. O, bütün kainat kitabının vərəqləri arasındakı müəmmalı, sirli, məxfi məqamları bəşəriyyətə açıqladı. 23 ilə cahillər arasında fatehlər, alimlər, övliyalar, ədiblər və.s yetişdirdi. Bir məktəb və bir müəllim qısa zamanda minlərlə insanı islah etdi. Bununlada elmin dəyəri, alimin qiyməti, müəllimin nüfuzu böyüdü və aliliyi dərk olundu.

"Alimlər mənim varislərimdir", "Alimin ölümü yerdə aləmin ölümüdür" deyən bizim peyğəmbərimiz, elm sahiblərinin alim olmasında müəllimin roluna müstəsna əhəmiyyət vermişdir.

Müəllim könül insanı, qəlb dostu, həqiqət carçısı, bəşəriyyətin iftixarı dünya və axirət günəşidir.

"Bütün məxluqat müəllimə istiğfar edir, hətta dənizlərdəki balıqlarda" (hədis)







# Azərbaycan xalqına ürəyimi vermişəm

*Adilə Qocayeva*

**Görkəmli Azərbaycan bəstəkarı, kecmiş SSRİ və Azərbaycanın xalq artisti, Dövlət mükafatı laureatı, AMEA-nın müxbir üzvü, Bakı Musiqi Akademiyasının bəstəkarlıq kafedrasının müdiri, professor Arif Məlikov Azərbaycan mədəniyyətinin və incəsənətinin inkişafında, onun planetin bir çox ölkələrində təmsil və təbliğ olunmasında, eyni zamanda gənc bəstəkarlar nəslinin yetişməsində xidmətləri olan qocaman bəstəkarlardandır.**

**Arif Məlikov 1933-cü il sentyabr ayının 13-də Bakıda anadan olub. 1958-ci ildə Ü.Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasını bitirib. 1961-ci ildə Nazim Hikmətin eyni adlı pyesi əsasında yazdığı "Məhəbbət əfsanəsi" baleti ilə elə həmin vaxtdan bu günə kimi dünyanın 65-dən artıq teatrında, 100-dən artıq ölkəyə qastrol səfərlərində Azərbaycan musiqisinin zənginliyini yüksək səviyyədə nümayiş etdirir. A.Məlikovun "Məhəbbət əfsanəsi" baleti düz 45 ildir ki, dünyanın bir çox teatrlarının repertuarından düşmür. A.Məlikov 3 balet - "Məhəbbət əfsanəsi", "İki qəlbin dastanı" və "Bu torpaqda iki nəfər" baletlərini, həmçinin VIII simfoniya, kantatalar, kamera instrumental əsərlərin, romanslar və mahnılar müəllifidir.**

**Arif Məlikov eyni zamanda Vətənini xalqını, sevən, onun düşmənlərinə sözlə öldürücü zərbə vurmağı bacaran bir vətəndaşdır. 1990-cı il 20 Yanvar hadisələri zamanı Moskvada, Ali Sovetin tribunasından M.S.Qorbaçova dediyi kəskin ifadələr hər kəsin yadındadır. Həmin illərdə tərtib etdiyi "İttiham edirəm" kitabı xalqımızın düşmənlərini ifşa edən mənbələrdəndir.**

**Arif Məlikov istedadlı bəstəkar, təcrübəli pedaqoq olmaqla yanaşı, həm də rənglər dünyasında özünü tapan bacarıqlı bir rəssamdır. Onun rəsmləri xarici ölkə vətəndaşlarının, dostlarının şəxsi kolleksiyalarını bəzəyir.**

**Belliklə, müsahibim dünya şöhrətli bəstəkar, təcrübəli pedaqoq və istedadlı rəssamdır.**

**- Arif müəllim, sizi sənətə gətirən yollar barədə danışmağınızı istərdik.**

- Musiqiyə çox gec gəlmişəm. 14 yaşım olanda ilk dəfə mənə tar alıb bağışladılar. Qısa müddətdə o tarda çox gözəl çalırdım. Sonra A.Zeynallı adına musiqi məktəbinin tar sinfinə qəbul olundum. Orada Əhməd Bakıxanovdan, Adil Gəraydan, Mirzə Mansurdan tarın, milli köklərimizlə bağlı olan muğamatın incəliklərini öyrəndim. Bəstəkarlığa məndə yavaş-yavaş həvəs oyanırdı və özlüyümdə bu işlə məşğul olurdum. Musiqi məktəbini bitirəndən sonra bəstəkar olmaq fikrinə düşdüm. Lakin bunun üçün mükəmməl təhsil lazım idi. 1951-ci ildə 17 yaşımda Şuşaya gedib tardan dərs deməyə başladım. Çox iti hafizəm vardı. 11 illik musiqi proqramını bir ilə öyrəndim. Musiqi mənim beynimdə, ürəyimdə lap uşaqlıqdan yer tutub. Çünki anam ədəbiyyat müəllimi olmaqla bərabər, evdə çox gözəl kamança çalırdı. Konservatoriyaya qəbul olundum və 5 il təhsil aldım. Bu 5 ilin hər bir ilində o qədər işlər görürdüm ki, bu işləri digər tələbələr görə bilmirdilər. III kursda oxuyarkən simfonik parteturamı yazıb maestro Niyazinin yanına getmişdim. Artıq, çox ucuz kostyum geyinmiş tələbəyə - mənə üstdən aşağı baxaraq kimliyimi soruşdu. Dedim. Cavabında "Mən Konservatoriyanın tələbələrinin əsərlərini çalmıram" - dedi. Korpeşman dönüb getmək istəyəndə qoltuğumdakı qovluğun içində nə olduğunu soruşdu. Partetura olduğunu söylədim. Alıb 40 dəqiqəyə yaxın vərəqlədi, onu çalacağını bildirdi və soruşdu ki, sənin orkestr səslərini köçürməyə imkanın var? Cavab verdim ki, maestro, madam çalacaqsınız, mən gecə-gündüz oturub onu köçürərəm. Belə də etdim. Orkestrdə olan 100 nəfər ifaçı üçün parteturanı köçürdüm, Niyazi səsləndirdi. Bu mənim yaradıcılığıma böyük maestro tərəfindən göstərilən yüksək etimad və təkan idi. Bir ildən sonra "Nağıl" simfonik poemamı, daha sonra fleyta ilə orkestr üçün "Konsert" yazdım. Konservatoriyanı 1-ci simfoniyamı yazmaqla başa vurdum və bu əsərlərimin hamısını maestro Niyazi çaldı.

5 il konservatoriyada Q.Qarayevin sinfində təhsil alarkən o, mənim gələcək həyat və yaradıcılığımın əsasını qurdu. Dünya musiqisi ilə maraqlanmağa başladım və bunu dünya ədəbiyyatından öyrəndim. Konservatoriyanı bitirəndə böyük simfonik orkestr üçün yazılmış 4 əsərin müəllifi idim.

**- Sizi bütün dünyada tanıdan "Məhəbbət əfsanəsi" baletinizin uğurlu taleyi barədə məlumat verməyiniz xoş olardı.**

- 1961-ci ildə heç kimə demədən "Məhəbbət əfsanəsi" baletini yazıb Leninqradın İmperator Teatrına apardım, qəbul etdilər. Teatrda 7 nəfər dirijor fəaliyyət göstərirdi, lakin baletimi onların yox, məhz Niyazinin tamaşaya qoymasını istədim. Beləliklə, Niyazini İmperator Teatrına dəvət etdilər. 1961-ci ilin mart ayında, Novruz bayramı ərəfəsində Niyazi "Məhəbbət əfsanəsi"ni tamaşaya qoydu. Bir müddət sonra Niyazini Leninqradda Baş dirijor təyin etdilər. Beləliklə, böyük maestroya öz borcumu qaytardım. Ümumiyyətlə, həyatda mənə kiçicik bir yaxşılıq edən insanlara həmişə qat-qat əvəz verməyə çalışmışam.

Fəxrlə deyə bilərəm ki, dünya praktikasında bəlkə də yeganə nümunədir ki, "Məhəbbət əfsanəsi" baleti müəllifinin sağlığında dünyanın 60-dan çox ölkəsinin teatr səhnələrində tamaşaya qoyulub.

Yeganə azərbaycanlı müəllifəm ki, Moskvanın Böyük Teatrının səhnəsində əsərim uzun illərdir ki, oynanılır. Elə ölkələr var ki, 10-15 teatrında bu balet oynanılıb. Məsələn, Almaniyanın 15 teatrında, Rusiyanın Sibirdən tutmuş Böyük Teatrınadək, demək olar ki, bütün teatrlarında göstərilib. 60-cı illərin əvvəllərində "Məhəbbət əfsanəsi" Bakıya da gəlmişdi və geniş imkanlara malik operada yüksək səviyyədə tamaşaya qoyulmuşdu. Moskvanın böyük musiqiçiləri mərkəzdən uzaq bir əyalətdə dünya şöhrətli belə bir baletin yaranmasına öz heyrətlərini gizlədə bilmirdilər. 45 ildir ki, "Məhəbbət əfsanəsi" baleti Leninqradın İmperator Teatrında, 40 ildən yuxarıdır ki, Moskvanın Böyük Teatrında, neçə illərdir ki, Amerikanın bir sıra iri şəhərlərinin teatrlarında, Türkiyədə, Yaponiyada, Yuqoslaviya, Polşada, Özbəkistanda uğurla oynanılır. Bu balet 2 min, 6 min, 15 min, hətta bir dəfə Braziliyida 1 milyon tamaşaçıya göstərilib.

Mən 8 simfoniyanın müəllifiyəm. Simfoniya ən böyük simfonik janrıdır. 8-ci "Əbədiyyət" Simfoniyamı Heydər Əliyevə həsr etmişəm.

Əfsuslar olsun ki, bu gün operamızda mənim baletlərimlə yanaşı, Ü.Hacıbəyovun "Ko-

roğlu", operası Q.Qarayevin, F.Əmirovun baletləri, Niyazinin "Xosrov və Şirin", "Çitra" baletləri Soltan Hacıbəyovun oğlu İ.Hacıbəyovun operaları da göstərilmir. İ.Hacıbəyov 10 il bundan əvvəl bir opera yazıb, heç maraqlanan da yoxdur. O, 2-ci operasını yazarmı? Əlbəttə yox! Nə vaxta kimi biz C.Verdinin, Motsartın və digərlərinin əsərlərini saya-saya duracağıq?

Azərbaycan tamaşaçısının dünya klassiklərinin musiqilərindən xəbərdar olmaq haqqı var. Bunun üçün heç olmasa on ildə bir dəfə XX əsrin müasir bəstəkarının bircə əsəri tamaşaya qoyulmalıdır ki, tamaşaçı musiqi sahəsində inkişafın nəyin üzərində qurulduğunu bilsin. Dünya musiqisini irəli aparan bir müasir bəstəkarın əsəri Azərbaycan səhnəsində yoxdur.

Biz yeganə ölkəyik ki, Q.Qarayev, F.Əmirov, A.Məlikov, A.Əlizadə kimi müasir bəstəkarların 6-7 baleti var və bu əsərlər tamaşaya qoyulsa, həm teatrın səviyyəsi qalxar, həm də aktyorların sosial vəziyyəti yaxşılaşar.

Mətbuat aparıcı güc olmalı, bizim üstün və çatışmayan cəhətlərimizi görüb yazmalı, eybəcərliklərin düzəlməsinə kömək etməlidir. Müasir mətbuatın bəziləri dedi-qodu ilə, ara qızışdırmaqla, etikadan kənar ifadələrlə başqalarının şəxsiyyətlərini alçaltmağa çalışmaqla məşğuldurlar. Qəzetdən oxuyuram ki, "Arif Məlikovu Türkiyədən qovublar". Onu yazan Arif Məlikovun kim olduğunu dərk etməyən insandır. Mənim şərəfimə Türkiyədə konsert salonu tikilib. 7-ci simfoniyamı İhsan Doğramacının istəyi ilə yazmışam və bu əsər Türkiyədə böyük təntənə ilə ifa olunub. Nazim Hikmətin 100 illik yubileyində Türkiyənin İş bankı 400 min dollar xərcləyərək "Məhəbbət əfsanəsi"ni tamaşaya qoydurub. Bəzi qəzetlər kiməsə kölgə salmağa çalışmaqdansa, cəmiyyətdə ümumxalq işinə əngəl olan neqativ halları qələmə alıb onları düzəltməyə cəhd etsələr, daha faydalı olar.

Mən xoşbəxt sənətkaram ki, Azərbaycanı öz əsərlərimlə bütün dünyada tanıdır və sevdirirəm. 45 il ərzində 3 baletimin 70-dən artıq premyerası olub. Bütün ölkələrdə hazırlanan afişalarımın axırından fəxrlə azərbaycanlı olduğumu yazdırıram.

**- Siz eyni zamanda maraqlı simfonik əsərlərin, kamera musiqilərinin, populyar mahnıların, bir sıra filmlərə yazılmış musiqilərin müəllif kimi tanınırsınız.**

– Mən musiqinin bir çox janrlarında əsərlər yazmışam. Uşaqlar və böyüklər üçün saysız-hesabsız kinolara musiqilər bəstələmişəm. "Axırıncı aşırım", "Qatarda ölüm", "Dənizdən siqnal", "Mosfilm"in istehsal etdiyi "26 Bakı komissarı", "Ulduzlar sönmür", "Ürək dastanı", Orta Asiyanın "Şahnamə" əsəri üzrə çəkdiyi 5 seriyalı filmə 6 saatlıq musiqi yazmışam. Uşaqlar üçün çəkilmiş "Sehrli xalat", "Qərib cinlər dünyasında" və digər bir sıra filmlərin də musiqisi mənimdir.

**– Arif müəllim, siz həm də təcrübəli pedaqoqsunuz. Tələbələriniz arasında gələcəyin Arif Məlikovu yetişəcəyinə inamınız varmı?**

– Müəllimliyə 17 yaşımdan, Şuşa musiqi məktəbindən başlamışam. Hazırda Bakı Musiqi Akademiyasının bəstəkarlıq sinfinin kafedra müdiriyəm. Tələbələrim arasında istedadlı bəstəkarlar artıq yetişib. Sizin burada gördüyünüz tələbələrim 1-ci simfoniyalarını yazıblar, 2-ci simfoniyanın üzərində işləyirlər. Tələbələrimə ixtisasdan əlavə insanlıq dərsləri də keçirəm. Onların arasında bir nəfər də olsun insani keyfiyyətlərini itirmişi yoxdur. İstedadlı bəstəkarlar yetişir, lakin onların inkişaf etmələri üçün şərait lazımdır.

**– Şərait dedikdə yəqin ki, not əsərləri çap edən nəşriyyatın, görkəmli bəstəkarlarımızın əsərlərini, əlyazmalarını saxlayan institutun olmasını nəzərdə tutursunuz?**

– Çox ağrılı yerimə toxundunuz... Sovet dövründə biz Moskvanın, Kiyevin və Azərbaycanın musiqi nəşriyyatlarından istifadə edirdik. Azərbaycan müstəqil olandan sonra Moskva və Kiyev bizim notları çap etməkdə maraqlı deyil, Azərbaycanda isə nəşriyyat ləğv olunub. Klassik bəstəkarlarımızın not yazılarını tapıb istifadə edə bilməyən tələbə necə inkişaf edə bilər?!

Mənim yaşadığım binanı vaxtilə SSRİ Bəstəkarlar İttifaqı tikdirib. Onun birinci mərtəbəsində ən zəngin not mağazası yerləşirdi. İndi neçə yerə bölünüb, içində not yazılarından başqa hər şey satılır.

Azərbaycanda not yazılarını çap edən nəşriyyat yoxdur, Musiqi Akademiyasının kitabxanasında olan köhnə not yazıları isə vərəqlənməkdən şil-küt olub. Mən öz notlarımı xarici ölkələrdə çap etdirib gətirə bilərəm. Hətta Fransada mənsiz notlarımı çap edib, üstündə qonorarı ilə birlikdə mənə göndərmişdilər. Axı, gənc bəstəkarların belə variantlara imkanları yoxdur.

Azərbaycanda klassik bəstəkarların not yazıları satılan 4 metrlik bir mağazası yoxdur. Gənc bəstəkarların inkişafı üçün not əsərlərini çap edən nəşriyyatın, onların qorunub saxlanmasını və satışını təmin edən mənbələrin olması vacib məsələdir.

– 2 il bundan əvvələ kimi yalnız istedadlı bəstəkar və təcrübəli pedaqoq kimi tanınan Arif Məlikov tamaşaçı qarşısına yeni ampulada bacarıqlı rəssam kimi çıxdı. Fəaliyyətinizin bu sahəsi barədə məlumat verməniz maraqlı olardı.

– Məndə rəssamlığa həvəs lap uşaqlıqdan var idi və özlüyümdə həmişə bu işlə məşğul olmuşam. Məni tanıyanların, yaxınlarımın və dostlarımın evində onlara bağışladığım rəsm əsərlərim var. Rəssamlar İttifaqının üzvüyəm. Onların təkidi və Heydər Əliyev Fondunun sədri Mehriban Əliyevanın dəstəyi ilə V.Səmədova adına sərgi salonunda 2 il bundan əvvəl fərdi sərgim keçirildi və deyilənlərə görə bəyənildi. Xarici ölkələrdə – Türkiyə, Fransa, Rusiya, İngiltərə və başqa ölkələrdə olan şəxsi kolleksiyalarda da rəsmlərim saxlanılır. O sərgidən sonra hərdən mənimlə rəssam kimi də söhbətlər aparırlar.

**– Arif müəllim, xalq sizi cəsarətli, vətənpərvər və millətini sevən bir vətəndaş kimi də tanıyır. 1990-cı il 20 Yanvar hadisələri baş verən zaman M.S.Qorbaçova verdiyiniz məntiqi cavablar unudulmayıb. Bəlkə bu barədə danışasınız.**

– Əvvəla, onu deyim ki, xalqımın mənə olan hörmət və etimadını hər addımbaşı görür və hiss edirəm. Azərbaycan xalqı çox qədirbilən, dəyərli oğullarını qiymətləndirməyi bacaran xalqdır. Bu millətin oğlu olduğuma görə fəxr edirəm.

1990-cı il 20 Yanvar faciəsi baş verəndən sonra SSRİ Ali Sovetinin deputatı kimi Moskvada 2200 nəfər deputatın olduğu salonun tribunasından cinayətkar M.S.Qorbaçova "– Sizin əliniz Azərbaycan xalqının qanına batıb. Bunu insanlar bağışlasalar da, Allah bağışlamayacaq. Vaxt gələcək, sən bunun üçün cavab verəcəksən" – deyə onu ittiham etdim. Qəddar, xalqımızın qanına susamış Yazova isə dedim ki, Azərbaycan millətini güllələdiyinə görə səni generallıqdan marşal rütbəsinə qaldırdılar. Bunu heç vaxt sənə bağışlamayacaqlar". Bu bir vətəndaş kimi mənim vicdanımın səsi idi. Həmin vaxtlar qəlbimin ağrılarını əsərlərimə köçürməklə yanaşı, xalqımın köməyinə də çatır, günahsızları həbsxanalardan qurtarır, ehtiyacı olanları xəstəxanalara aparırdım. Həmin illərin real faktları əsasında hazırladığım 15000 nüsxə tirajla buraxılan "İttiham edirəm" kitabının əksər nüsxələri satışdan yığışdırılaraq Alatava ərazisində yerləşən anbarlardan birində gizlədilmiş, beləliklə geniş oxucu kütləsinin əsl həqiqəti bilməsinə maneçiliklər törədilmişdi. Hələ yaxşı ki, yandırıb tamamilə məhv etməmişdilər. Onları sonralar oradan götürüb xalqa çatdıra bildim.

Siz 8-ci Simfoniyanızı ümummilli liderimiz Heydər Əliyevə həsr etmisiniz. Ümumiyyətlə, mədəniyyətin, incəsənətin və sənət adamlarına dəyər verən Heydər Əliyev sizin yaradıcılığınıza yanaşmış, yüksək qiymətləndirmişdir. Heydər Əliyev çıxışlarının birində demişdir. "Arif Məlikov Azərbaycan üçün milli sərvətdir. Mən bunu heç də şişirtmədən, tam səmimiyyətlə deyirəm"

– Bəli, elədir. Əvvəlki respublika rəhbərləri Axundov, Əlixanov kimi Heydər Əliyev də mənim sənətimə və şəxsiyyətimə həmişə hörmətlə yanaşıb. O, bir neçə xarici ölkələrə rəsmi səfərləri zamanı məni də dəvət etmişdi. Heydər Əliyevin sənət, musiqi haqqında düşüncələri məni çox maraqlandırırdı. Heydər Əliyevin sənət haqqındakı fikirləri məndə ona qarşı saf duyğular yaradırdı. Həmin hisslərin məntiqi nəticəsi olaraq 8-ci "Əbədiyyət" Simfoniyamı yazaraq ona ithaf etdim.

**– Siz zəhmətkeş və fəaliyyət göstərməyi sevən adamsınız. Hazırda nə üzərində işləyirsiniz?**

– Mən hər gün yazıram. Bəzən üzərində işlədiyim bir əsəri yarımçıq qoyub qəlbimin hökmü ilə başqa, yeni bir mövzuya keçirəm. Hazırda bir sıra əsərlərlə bərabər 9-cu Simfoniyamı yazmaqla məşğulam.

Eyni zamanda Konservatoriyada gənc bəstəkarlar nəslinin yetişməsinə xidmət edirəm.

**– Arif müəllim, sizə cansağlığı və yeni-yeni uğurlar diləyirik.**

– Sağ olun

*Azərbaycan xalqına övladları müvəffəq olduqları bütün dəyərlərini veriblər. Kimisi elmini, kimisi dühasını, kimisi canını, kimisi də ürəyini...*
*Ancaq xalqımız saf, bərraq sinələrdə yetişən ənaniyyətdən, təkəbbürdən uzaq olanları almış, milli xəzinəsinə həkk etmişdir. Bu xəzinədən yararlanan hər kəs dünyanın dörd bir yanında olmasından asılı olmayaraq milli xəzinənin sonsuz güllərini bağrına basaraq, Vətən deyirlər...*



# Ana



*Cəfər Cabbarlı*

Əgər bütün bəşəriyyət edüvvü-canım ola,
Ürək süqut eləməz aldığı mətanətdən.
Ricavü xəvfə məkan verməm gər alimlər,
Min il də vəz edərlər dəhşəti-qiyamətdən.

Pələnglər tuta dövrüm, çəkinmərəm haşa,
Və ya ki, vəd edələr dövləti-cahanı mənə.
Ki, bir kəsə baş əyib əczimi bəyan eləyim,
Əyilmərəm nə ki, yer, versələr səmanı mənə.

Yanımda gər dura cəllad əlində şəmşiri
Ölüm gücilə mənə hökm edə olum təslim,
Əyilmərəm yenə haşa! Ölüm nədir ki, onun
Gücilə xalaqa heqiranə eləyim təzim?

Cahanda yox elə bir qüvvə baş əyim ona mən,
Fəqət nə güclü, zəif bir vücud var, yahu,
Ki, hazıram yıxılım xaki-payinə hər gün,
Öpüm ayağını əcz ilə. Kimdir o? Nədir o?

Ana! Ana!.. O adın qarşısında bir qul tək.
Həmişə səcdədə olmaq mənə fəxarətdir;
Onun əliylə bəla bəhrinə yuvarlansam,
Yenə xəyal edərəm bəzmi-istirahətdir.

Əs ey külək, bağır, ey bəhri-biaman, ləpələr!
Atıl cahana sən, ey ildırım alış parla!
Dayanma, taqi-səmavi gurulda, çatla, dağıl!
Sən, ey günəş, yağışın yağdır ey bulud ağla!

Mənə əsər eylərmi bu? Mütləqa yox! Yox!!!
Fəqət Ana! O müqəddəs adın qabağında,
O pak bağrına bassın məni, desin layla,
Təbəssüm oyandıraq titrəyən dodağında.

Bütün vücudum əsər, ruhum eylər pərvaz,
Uçar səmalara hər aləmi-xəyalətdə,
Yatar, ölər bədənim, nitqidən düşər bir söz:
- Ana...Ana... Sənə mən rahibəm itaətdə!..

Aman... Aman!.. Bu müqəddəs vicudu mümkünmü,
Ki, bir taqım canavar zülmnən şikar elesin?!
Yıxıb da xaki-rəzalətdə, tapdayıb əzərək,
Ayaqlar altda topraq kibi nisar elesin?!

Zəlilü xar edərək məhbəsi əsarətdə,
O şanlı qollarına zülminən vurar zəncir,
Niyə? Neçin? Hanı vicdan? Hanı ədalət bəs?
Neçində parlayıb etməz cahanı bir tənvir?

Aləmi, ədl-ədalət üzüldü dünyadən,
Neçin nəsibim edibsən bu zülmü-dövranı.
Ey asiman dağıl, ey zöhrələr axın, tökülün,
Ki, aləmi-bəşəriyyət unutdu vicdanı.





# Kamal bağçası

*Hazırlayan M.Yunusov*

**Bir insanın könül torpaqlarında kamal bağçasının yetişməsi üçün o bağçanı yalnız vəhyin rəhmət suyu ilə suvarmaq şərtdir...**

Günlərin bir günü Səyyahın yolu bir bağçaya düşür.

Bu bağça elə bir bağçaymış ki, oradakı güllərin hər biri bir-birindən zərif, bir-birindən incə və bir-birindən gözəl imiş.

Bu bağçanın qədim naxışlı bir qapısı var imiş. O, qapının yanında güllər qədər zərif, o, güllər qədər incə bir xanım dayanıbmış. Səyyah xanımı görüncə hörmət və ehtiramla ona yaxınlaşıb özünü təqdim edib onun adını soruşur.

Xanım cavab verir; Mənim adıma buralarda Sevgi deyirlər.

**Səyyah:** Sevgi xanım, burada təkmi yaşayırsınız?

**Sevgi:** Xeyr, Həyat yoldaşımla bərabər yaşayıram.

Hal-hazırda bağçada işləyir, onun adı Elmdir. O, yorulmaq - bezmək nədir, bilməyən bir insandır.

**Səyyah:** Bağçanızı gəzmək olarmı?

**Sevgi:** Bəli, bəli buyurun, ancaq xahiş edirəm ayaqqabılarınızı çıxarıb zəhmət olmasa bu, "ehtiram" dediyimiz çarıqları geyinəsiniz. Elə bu əsnada Elm də gəlib çıxır və birlikdə Sevgi öndə Elm və Səyyah onun arxasınca bağçanı gəzib-dolaşmağa başlayırlar. Səyyah bağçanı gəzdikcə buranın çox fərqli bir bağça və buradakı hər bir gülün özünə xas bir ismi olduğunu anlayır.

Xoşbəxtlik, səbr, qənaət, ədalət, iradə, şəfqət, təvazü, fəzilət, mülayimlik və s. bu qədər zəngin növdə, fərqli-fərqli çeşidlərdə olan gözəl güllər və hər birinin özünəxas qayğısı, səliqə-səhmanı, nizam-intizamı, qarşısında həyacanlanıb heyrətə düşən Səyyah, bağban Elmdən soruşur: Heç olur ki, siz bəzən bu güllərin adlarını qarışdırasınız?

**Elm:** Olur. Bəzən adları səhv salıram amma elə o andaca Sevgi köməyimə gəlir və mənə doğru ismi xatırladır.

**Səyyah:** Güllərin böyüyüb boya-başa çatdığı bu torpağın özünə xas bir xüsusiyyəti varmı?

**Elm:** Bir xüsusiyyəti olub-olmadığını bilmirəm ancaq bu torpağı bizə Vəfa adında bir dostumuz gətirir. Vəfanın dediyinə görə mərhəmətli bir insan görəndə onun torpağından bizə gətirir, biz də onu Mərhəmət gülünün altına səpirik və ya şəfqətli bir insanın torpağından gətirəndə, Şəfqət gülünün altına səpirik və bu beləcə davam edir.

**Səyyah:** Heç olur ki, gülü gülə calaq edəsiniz?

**Elm:** Əlbətdə. Bax Xəyal gülünə Həqiqət gülünü calaq etdik; Ümid gülü meydana gəldi. İman gülünə Əməli calaq etdik oldu Təslimiyyət gülü. Hikmət gülünə Ağılı calaq etdik İradə gülü oldu. Bu calaqları hər zaman etmək məcburiyyətindəyik...

O, möhtəşəm Ədalət gülünə Qüdrət gülünü calaq etməsək, Ədalət gülü aciz qalar, bir qədər sonra saralıb solmağa başlayar. Bax o, Qüdrət gülünə Ədaləti calaq etməsək qüdrət gülünün torpağında zülm böcəkləri törəyər.

**Səyyah:** Bu calaqları sizmi edirsiniz?

**Elm:** Çubuqları mən hazırlayıram amma onu birləşdirən, calaq edən xanımım Sevgidir. O, ilham qələmini əlinə götürər, calaq olunacaq varlığın Ağıl pərdəsini yavaş-yavaş yumşaqca aralayar, beləcə o varlığın könlünə yetişər, oraya calaq çubuğunu ehmalca yerləşdirər. Sonra da meydana gələn bütün qədər ipləri ilə ahəstə-ahəstə sarıyar. Mən də bütün bu əməliyyatı, bu mərhələləri hər dəfə eyni doyulmaz bir zövq və həyacan içərisində seyr edirəm sanki o, anda Rəbbim yanımızdaymış kimi....

**Səyyah:** Üstünlük verdiyiniz güllər varmı?

**Elm:** Əslində yox, fəqət həyat yoldaşım Sevgi, Mülayimlik üçün; "O, mənim beş hissim"dir. Səmimiyyət üçün; "O, mənim əxlaqım", Təvazü üçün; "O, mənim ədəbimdir" deyir, amma deyəsən Ümidə həddindən artıq meyillidir. Çünki, həmişə "Ümid mənim qanımdır" deyir...

Səyyah Elmin anlatdıqlarının və öz gördüklərinin təsiri altında dərin düşüncələrə dalıb ordan uzaqlaşır.

Beləcə bir neçə gün yol qət edir və sonunda bir qəsəbəyə çatır. Qəsəbənin girişində kiçik bir Çay bağçasını görüb içəri daxil olur. İçəridə tək başına əyləşmiş yaşlı bir kişi asta-asta çay içirdi. Yavaşca yaxınlaşıb müdrik qocanın yanında oturub özünü təqdim etdir və ondan adını soruşur. Yaşlı ixtiyar belə cavab verir:

Mənə buralarda Adəm deyirlər.

Səyyah başına gələn bütün hadisəni, oradakı gül bağçasını, iki soylu bağbanı və aralarında olan söhbəti yaşlı ixtiyara söyləyir.

Adəm Səyyahın anlatdıqlarının hamısını bircə-bircə dinləyir və sonra da belə cavab verir: Oğul o, bağçanın nə bağçası olduğunu bilirsənmi? Səyyah: Xeyr bilmirəm...

Müdrik qoca astaca başını yırğalayıb belə deyir: Oğul o bağçaya insanlığın Kamal bağçası deyirlər...











## ŞÜKUFƏZARİ-BƏNAT və yaxud

# QIZLAR BAĞÇASI

*Məhəmməd Hadi*

İştə bir aliheyi-hüsnü cəmal,
İştə bir malikeyi-fəzlü kəmal.

İştə bir düxtəri-pakizəxisal,
Şəmsi-rəxşəndeyi-afaqi-cəlal.

Hər sabah çantası dərdəsti-ədəb,
Nöqteyi-məqsədidir "dari-ədəb".

Əməli, fikri bütün kəsbi-kəmal,
Nə müqəddəs əməl, fikir, xəyal!

İşbu məsumeyi-fərxəndəxisal
Çalışır ki, edə ehrazi-kamal.

Anlamış elmidir əsbabi-nicat,
Elmidir baisi-fövzi-dərəcat.

Qoşuyor məktəbə bir nur kibi,
Gediyor cənnətə san hur kibi.

Zahiri zivərə yoxdur həvəsi,
Zivəri-batinə çoxdur həvəsi.

Elmdir hilyeyi-insaniyyət,
Elmdir zivəri-islamiyyət.

Elmdir adəmə ən şanlı şərəf,
Milləti-cahilə olmazmı tələf?

Elmdir məsədətəfzayi-həyat,
Sən də qıl elmlə təzyini-sifat.

A çocuq! Ey şərəfənduzi-kəmal!
Ey mələksirəti-lahutixisal!

Oxu, ey bülbüli-növxani-çəmən!
Sənin ilə edəcək fəxr vətən.

Şimdidən tərbiyə qıl bağı-dili,
Bitsün ol bağçada ta elm güli.

Nə gözəl söyləyüb ol "məzhəri-elm":
Tərbiyətbəxşi-maarif "dəri-elm":

"Zinəti-zahiriyi sanma cəmal,
Zinəti-batinidir əsl cəmal".

Zinəti-candır ədəb, fəzl, kamal,
Adəmin zivəridir yaxşı xisal.

Qəlb mirati-mücəlla kibidir,
Fikr bir abi-müsəffa kibidir.

Ləkədar olsa əgər lövhi-xəyal,
Saflandırmaq anı əmri-mühal.

Seyqəli-ruhdur adabi-fünun,
Eyləyək təsfiyeyi-lövhi-dərun.

*01 noyabr 1906*



**Aliheyi-hüsn** - gözəllik ilahəsi
**Malikeyi-fezl** - üstünlüyə sahib
**Düxteri-pakizexisal** - təmiz xislətli qız
**Şemsi-rexşendeyi-afaqi-celal** - əzəmətli üfüqdən parlayan günəş
**Derdesti-edeb** - ədəblə
**Dari-edeb** - ədəb evi
**Kesbi-kemal** - kamala çatmaq
**Mesumeyi-fexrendexisal** - təmiz xoş xislətli
**Ehrazi-kamal** - kamal əldə etmə
**Əsbabi-nicat** - Nicat səbəbləri
**Baisi-fövqi-deracat** - üst dərəcələrə çatmaq
**Ziver** - bəzək
**Hilyeyi-insaniyyet** - insanlıq zinəti
**Ziveri-islamiyyet** - islamiyyət bəzəyi
**Mesedetefzayi-heyat** - səadət bəxş edən həyat
**Tezyini-sifat** - sifət bəzəmə
**Şerefenduzi-kemal** - şərəfli, kamallı
**Ey meleksireti-lahutixsal** - mələk xislətli, gözəl xasiyyətli
**Bülbüli-növxani-çemen** - çəmənliyin yeni oxuyan bülbülü
**"Mezheri-elm"** - elmə nail olan (Həzrəti Muhəmməd (s) nəzərdə tutulur)
**"Deri-elm"** - elm qapısı, çox bilikli adam (Həzrəti Əli (ə) nəzərdə tutulur)
**Mirati-mücella** - təcəlla aynası
**Abi-müseffa** - saflaşdırılmış su
**Lekedar** - ləkəli
**Lövhi-xeyal** - xəyal lövhəsi
**Əmri-mühal** - mümkün olmayan iş
**Seyqeli-ruh** - ruhu cilalandıran
**Adabi-fünun** - elm öyrənmək ədəbi
**Tesfiyeyi-lövhi-derun** - daxili aləmin saflaşdırılması





*Ulularımızın əlişləri, ilmələri, naxışları baxanların ürəklərini fəth edəcək gözəllikdə işlənmişdir. Bizə miras olaraq çatan bu möhtəşəm izlər xalılarda, kilimlərdə, daş lövhələrdə, qala divarlarında həmçinin torpaqlarımızın keşiyini çəkən ər oğullarımızın qılınc və qalxanlarında da bütün ehtişamı ilə öz əksini tapmışdır. Biz isə bu dəyərlərimizi hifz etməli, qorumalı və inkişaf etdirməliyik...*

٢٠٠٧ ، (٣٦)٤

ادبی فنی سیاسی اجتماعی مصور هفته لك ترکجه مجموعه اسلامیهٔ در

# فیوضات

امید ایله در بنای عالم
امید مهندس جهاندر
ذوق آور فکر، قلب جاندر
امید ایله در بقای آدم ...

عبد السلیم زاده